Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

13 FEVRAL 2020-ci il

№ 26 (4157)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİLƏRİN APREL DÖYÜŞLƏRİ BARƏDƏ YENİ VARİANTINA RUSİYADAN RƏSMİ ZƏRBƏ...

səh. 8

Qarabağ məsələsi ilə bağlı pərdə arxasında maraqlı proseslər başlanıb
səh. 9

MSK-nın qarşısında radikal toplantılar cəmiyyətin seçkiyə ümumi münasibətinə adekvat deyil
səh. 4

Yeni Milli Məclisin ən gənc və ən yaşlı deputatları...
səh. 7

Paşinyana qarşı yeni partiya - keçmiş DTX sədrinin Rusiya himayəsində olduğu deyilir
səh. 11

İdlibdə açıq Türkiyə-Suriya müharibəsi yetişir - İran və Rusiya da müdaxiləyə hazırlaşır
səh. 12

Azərbaycanlıların öz yurdlarından ermənilər tərəfindən zorakı deportasiya tarixləri...
səh. 10

Bakı apteklərində Dövlət Reyestrindən keçməyən dərmanların satışı genişlənməkdədir
səh. 15




səh. 3

## Seçkidə polisin asayişi mühafizə fəaliyyətini qaralamaq cəhdlərinin arxasındakı qüvvələr...



Radikal düşərgə namizədlərinin seçkidə biabırçı nəticələri - hətta bütün dairə üzrə 220 səs alanlar var...
səh. 5

Özünü İrana dost sayan Ermənistanın İrandan kütləvi qaçqınlar dalğası qəbul etmək planları...
səh. 8




Ali Attestasiya Komissiyasından daha bir narazılıq - «övladım dövlət qulluqçusu olduğu üçün elmi təsdiqini ala bilmir»
səh. 13

səh. 2
Seçki nəticələri barədə bəzi beynəlxalq təşkilatların rəyini saxtalaşdıran kimlərdir?



səh. 6
Səsvermə günü polislərin fəaliyyəti ətrafında ictimai-siyasi müzakirələrə daha bir ekspert rəyi...



səh. 5
2010-cu il seçkilərindən sonra ardıcıl səs itirən deputatlar - seçkidən-seçkiyə bəziləri üçün səs tənəzzülünün səbəbləri...



səh. 7
Ermənistan Prezidenti İordaniya Kralının üzünə ulu babasının tarixinə dair yalan uydurdu, Kral susdu...



səh. 14
Orta məktəb siniflərinə milli qəhrəmanların adlarının verilməsi...






# Prezident İlham Əliyev Kürdəmir səfərində bir sıra obyektlərin açılışında iştirak etdi

**Prezident İlham Əliyev fevralın 12-də Kürdəmir rayonuna səfər edib.**

Dövlət başçısı əvvəlcə Kürdəmir şəhərindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoyub, Pirili-Muradxan-Sor-Sor avtomobil yolunun yenidənqurmadan sonra açılışında, rayonun Karrar qəsəbəsində "Qlobal Aqro" Məhdud Məsuliyyətli Cəmiyyətinin aqroparkının təqdimatında, "ASAN xidmət" mərkəzinin açılışında və "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Kürdəmir filialının açılışında iştirak edib.




# Xocalı soyqırımının 28-ci ildönümünün keçirilməsinə dair tədbirlər planı təsdiq edilib

**Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin Sərəncamı ilə "Xocalı soyqırımının iyirmi səkkizinci ildönümünün keçirilməsinə dair Tədbirlər Planı" təsdiq edilib.**

"Trend"in məlumatına görə, tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən şəhər və rayonlarda Şəhidlər xiyabanının ziyarət edilməsi, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin, anım mərasimlərinin təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.

Bundan başqa, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların və qurumların iştirakı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr edilən sənədli və bədii filmlər nümayiş olunacaq.

Xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, ziyalıların şəhid ailələri ilə görüşləri təşkil ediləcək.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq. Həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək. Xocalı soyqırımı günü ilə əlaqədar respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endiriləcək.

# Seçki nəticələri barədə bəzi beynəlxalq təşkilatların rəyini saxtalaşdıran kimlərdir?

## *Aydın Quliyev: "Radikal müxalif dairələr xalqın fikrini çaşdırmağa çalışır"*

**9 fevral seçkilərində məğlub olmuş və seçkidə ümumiyyətlə iştirak etməmiş radikal çevrələrin xalqı boykota və nəticələri tanımamağa yönəlmiş çağırışları növbəti uğursuz siyasi taktikadır. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**




O bildirib ki, məğlub olmuş namizədlərin müxtəlif konkret dairələr üzrə nəticələrə dair irad və tənqidlər söyləməsi bütün dünya ölkələri üçün xarakterik siyasi davranış təzahürüdür: "Lakin mənşəyi dəqiq olmayan bir neçə konkret hadisənin timsalında bütün ölkə üzrə seçkinin nəticələrinin müxalif mövqedən siyasiləşdirilməsi və şübhə altına alınması yolverilməz davranışdır. Təəssüflər olsun ki, bəzi ifrat radikal ittihamçı dairələr təkmilləşməkdə olan seçki reallıqlarını və hətta bir sıra beynəlxalq təşkilatların ənənəvi yanaşmalarında baş verən pozitiv dəyişiklikləri də nəzərə almadan bütün nəticələrin ümumi qaralanması yolunu tuturlar. Radikal dairələrin geniş istinad etdiyi müəyyən sosial şəbəkə görüntülərinin sonadək araşdırılmasında dövlət orqanlarının maraqlı olması çox əhəmiyyətli faktdır. Təəssüf ki, radikal ittihamçılar rəsmi orqanların faktları araşdırmaq yönündə fəaliyyətlərinə də mötəbər yanaşa bilmir".

Politoloqun sözlərinə əsasən, ən narahatlıq doğuran məqamlardan biri radikal dairələrin hətta bəzi Avropa qurumlarının seçki ilə bağlı pozitiv istiqamətdə dəyişən mövqelərindən doğru nəticə çıxarmaması və hətta onu saxtalaşdırmasıdır: "Radikal müxalif dairələr xalqın fikrini çaşdırmağa və guya Avropa təşkilatlarının çox sərt tənqidi hesabat yaydıqlarına inam yaratmaq istəyirlər. Halbuki, ATƏT PA, AŞ PA və DTİHB-nin əvvəlki seçkilərdəki ənənəvi inkarçı mövqelərində əsaslı pozitiv dəyişikliklər baş verib. Avropa təşkilatlarının seçkidə rast gəlinən neqativlərin sistemli xarakter daşımadığı və yalnız lokal mahiyyətli olduğu barədə rəsmi rəyləri olduqca əhimiyyətlidir və daxildəki radikal dairələrin mövqeyinə tutarlı cavabdır. Radikal müxalifətin seçkinin nəticələri barədə bəzi Avropa qurumlarının rəsmi mövqeyini saxtalaşdırmaq cəhdləri yolverilməzdir.

Radikal dairələrin uğursuz taktikalarından biri də tək-tək məntəqələrdə baş vermiş kimi görünən hadisələri bütün ölkə üzrə ümumi seçkilərə şamil etmək cəhdidir. Bir sıra məqamlar daxili radikalların beynəlxalq müşahidəçilərdən tam fərqli və qərəzli mövqe tutduğunu aydın göstərir".

A.Quliyev qeyd edib ki, radikal çevrələrin uğursuz üsullarından biri bəzi sosial şəbəkə məlumatlarını guya bütün ölkə miqyaslı prosesin göstəricisi kimi qələmə verməkdir: "Yanlış taktiki üsullar sonda radikalların öz ifşaları ilə nəticələnə bilər. Rəsmi qurumlar sosial şəbəkələrdə yayılan məlumatların sonadək araşdırılmasında israrlıdır.

İndidən məlumdur ki, radikalların ciddi cəhdlə istinad etdikləri görüntülər sistem xarakterli deyil. Araşdırmalar ortaya qoyacaq ki, sosial şəbəkələrdə yayılan məlumatlar radikal müxalif dairələrin məqsədli düzüb-qoşduğu ssenarilərdir, tək-tək namizədlərin şəxsi mənafelərinə xidmət edən pozuntuları, yaxud ayrı-ayrı namizədlərin bir-birinin əleyhinə düzüb-qoşduqları kompromat səhnələridir. Bir sıra sosial şəbəkə görüntülərinin radikallar tərəfindən öncədən, məqsədli hazırlanmış səhnələr olduğuna dair ciddi şübhələr var.

Bütün hallarda, seçkinin nəticələrinə xalqın mütləq əksəriyyətinin münasibəti radikal ittihamçı müxalifətin münasibətindən tam fərqlidir".

**Aydın Quliyev və "Bakı-Xəbər" qəzetinin kollektivi əməkdaşımız Samirə Səfərovaya yaxın qohumu Sitarə xanımın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduqlarını bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

# Seçkidə polisin asayişi mühafizə fəaliyyətini qaralamaq cəhdlərinin arxasındakı qüvvələr...

**Zaman-zaman polisə yönəlik qaralama kampaniyasının aparılmasını müşahidə etmişik. Müəyyən qüvvələr, yeri gəldi-gəlmədi, polisin adını mənfi yönümdə hallandırmağa çalışırlar. Hər seçki dönəmində belə rəy yaratmağa çalışırlar ki, guya polis seçki prosesinə müdaxilə edir. Hansı ki, polisin işi ictimai asayişi qorumaqdan ibarət olur.**




## *Elman Nəsirov: "Guya polisin seçki prosesinə müdaxilə etməsi ilə bağlı səslənən fikirlər tamamilə yalandır"*

9 fevral parlament seçkilərində səsvermə zamanı sosial şəbəkələrdə yayılan bəzi videolarda polisin guya zorakılığa yol verməsi ilə bağlı fikirlər formalaşdırmağa cəhdlər edildi. Hansı ki, bütün bunlar qərəzli və ədalətsiz yanaşmalardır. Polis yalnız Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş halda - rəsmi dəvət əsasında seçki məntəqələrinə gəlib asayişi bərpa edir, qanunauyğun tədbirlər həyata keçirir. Ona görə də polisi qaralamaq, onun fəaliyyətinə kölgə salmaq qəbuledilməzdir. Nəzərə almaq lazımdır ki, polis qanunun ona verdiyi imkanlar daxilində hərəkət edir. Polisin əsas vəzifəsi isə ölkədə asayişi, insanların təhlükəsizliyini qorumaqdır. Əgər kimsə qanunu pozursa, qarşısında asayiş keşikçisini görəcək. Bu, dünyanın hər yerində belə olduğu kimi, Azərbaycanda da o cürdür.

Yeri gəlmişkən onu da qeyd edək ki, Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov sosial şəbəkələrdə Suraxanı rayonundakı seçki məntəqələrindən birində polis əməkdaşlarının məntəqənin daxilində bir nəfərə qarşı zor tətbiq etdiklərini əks etdirən videogörüntülərlə bağlı açıqlama verərək deyilənlərə aydınlıq gətirib. Məlum olub ki, həmin məntəqənin sədri qanunvericiliyin tələbinə uyğun olaraq, ərazidə xidmət aparan polis əməkdaşlarını məntəqəyə dəvət edib və oradakı müşahidəçinin seçki prosesinə yersiz və əsassız müdaxilə etməsini, seçicilərin normal səs vermələrinə maneələr yaratdığını bildirib. Bütövlükdə, Milli Məclisə növbədənkənar seçkilər zamanı polis yalnız Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş halda - rəsmi dəvət əsasında seçki məntəqələrinə gəlib asayişi bərpa edib və qanunauyğun tədbirlər görüb.

*"Reallıq ondan ibarətdir ki, müəyyən qüvvələr polisi qaralamaqla gözdən salmağa çalışırlar"*

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun sözlərinə görə, müəyyən dairələr polisi qaralamaqla gözdən salmağa çalışırlar: "Əvvəla 9 fevralda keçirilən növbədənkənar parlament seçkiləri şəffaf və demokratik şəraitdə keçirilib. Beynəlxalq müşahidəçilərin mütləq əksəriyyəti seçkini belə qiymətləndirib. Bu arada guya polisin seçki prosesinə müdaxilə etməsi ilə bağlı səslənən fikirlər tamamilə yalandır. Məsələ ondadır ki, polisin funksiyası ictimai asayişi təmin etməkdir. Ölkə polisi də bunu yüksək səviyyədə təmin edir. İnsanların gediş-gəlişinin sıx olduğu yerlərdə, nəqliyyatın hərəkət zonasında razılaşdırılmamış aksiyaların təşkilinə polis imkan vermir.

Çünki belə aksiyalar qanuna ziddir. Bu məsələdə polisin davranışı tamamilə onların fəaliyyətinə uyğundur. Seçki günü də polis ancaq ictimai asayişi qoruyub. Ancaq reallıq ondan ibarətdir ki, müəyyən qüvvələr polisi qaralamaqla gözdən salmağa çalışırlar. Bu isə düzgün hərəkət deyil. Bəziləri, xüsusən də radikallar seçkidə uduzmalarının səbəbini zəif sosial bazaları ilə deyil, polislə əlaqələndirməyə çalışırlar. Guya polis seçkiyə müdaxilə edib. Bu cür yanaşma isə kökündən absurddur".

***Vidadi ORDAHALLI***

# Əli Əhmədov: "Radikal müxalifət seçkilərin "nəticələrinə etiraz" bəhanəsi ilə qarşıdurma yaratmağa çalışır"

**Milli Məclisə keçirilən növbədənkənar seçkilərinin ilkin nəticələri elan olunduqdan sonra etiraf edilməli ilk və başlıca həqiqət bu nəticələrin Prezident İlham Əliyevin və onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının növbəti parlaq qələbəsinin ifadəsi olmasındadır.**



"Trend"in məlumatına görə, bu fikirləri Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov "Facebook" səhifəsində yazıb. O qeyd edib ki, ilkin nəticələrə görə partiyamızın namizədləri 72 dairədə səs çoxluğu qazanıb: "Bu, 2015-ci ildə keçirilən seçkilərdə partiyanın qazandığı deputat yerlərindən çoxdur. Milli Məclisdə Yeni Azərbaycan Partiyasını təmsil etmək hüququnu qazananların 13-ü qadın, 5-i 35 yaşa qədər olanlardır, 24 nəfər ilk dəfə parlament seçkilərində iştirak edib. Milli Məclisə növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi hər şeydən əvvəl Prezident İlham Əliyevin yüksək nüfuzuna, onun həyata keçirdiyi siyasət sayəsində iqtisadiyyatda, xalqın rifahının yaxşılaşdırılmasında, ölkəmizin beynəlxalq mövqeyinin gücləndirməsində əldə edilən möhtəşəm irəliləyişlərə, sabitlik, əminamanlıq və təhlükəsizlik kimi fundamental dəyərlərə, habelə genişmiqyaslı islahatlar konsepsiyasına əsaslanır. Seçkilərdə partiyanın qələbəsi, eyni zamanda Azərbaycanda İlham Əliyev tərəfindən uğurla həyata keçirilən islahatlar siyasətini insanların yüksək qiymətləndirməsi kimi də qəbul olunmalıdır".

Ə.Əhmədov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın ölkənin inkişafına verdiyi töhfələrin YAP-ın möhtəşəm qələbəsində xüsusi yeri olduğunu vurğulayıb: "Yeni Azərbaycan Partiyasının növbəti möhtəşəm qələbəsi əslində xalqın mütləq əksəriyyətinin Prezident İlham Əliyevə, onun siyasətinə dərindən inamının daha bir ifadəsidir. Xalqın dəstəyi ilə həmişə qələbələr qazanan Yeni Azərbaycan Partiyasının növbəti uğuru, həmişə olduğu kimi, ilk növbədə xalqın qələbəsi, demokratiyanın təntənəsi, ədalətin zəfəridir. Mən fürsətdən istifadə edərək Milli Məclisin üzvü seçilmək şərəfinə nail olmuş digər partiyaların nümayəndələrini, bitərəf namizədləri də təbrik edirəm. Əminəm ki, onlar seçicilərinin etimadını doğruldacaq, ölkəmizdə parlament ənənələrinin inkişafına öz töhvələrini verə biləcəklər. Milli Məclisə keçirilən növbədənkənar seçkilərin çox mühüm saydığım digər bir nəticəsini də qeyd etmək istərdim. Prezident İlham Əliyevin siyasətini, ölkədəki inkişafı, sabitliyi və əminamanlığı qətiyyətlə dəstəkləyən xalqımız, eyni zamanda, bütün mütərəqqi dəyişikliklərə qarşı çıxan radikal müxalifətə növbəti dəfə öz qəti və birmənalı münasibətini ifadə etmiş oldu. İctimai dəstəyinin bütünlüklə itirilməsi səbəbindən seçkilərə qatıla bilməyən radikalların köhnə ənənələrinə sadiq qalaraq seçkiləri "boykot" etmək çağırışları biabırçı iflasa uğradı. Bunun iki bariz nümunəsini göstərmək olar: birincisi və ən əsası insanların səsvermə günü göstərdiyi fəallıq və Prezidentin siyasətini dəstəklənməsidir. İkincisi isə seçkilərdə rekord sayda, 1300-dən çox namizədin iştirak etməsidir".

"Radikalları məyus edən digər bir məqamı da ayrıca vurğulamağa dəyər. Bu da seçkilərə beynəlxalq təşkilatların yüksək marağı, seçki kampaniyasının ayrı-ayrı mərhələlərini və səsvermə prosesini izləmək məqsədilə Azərbaycana 900-dək beynəlxalq müşahidəçinin gəlməsidir. Onların mütləq əksəriyyətinin seçkiləri yüksək qiymətləndirməsi, kampaniyanın demokratik prinsiplərə uyğun, açıq rəqabət şəraitində və şəffaf keçirildiyinə əsas dəlillərdən sayıla bilər. Radikalların gözlədiyinin əksinə olaraq, beynəlxalq müşahidəçilərin seçkilər ilə əlaqədar rəyləri onların ölkəmizdə keçirilən seçkilərə ləkə vurmaq planlarını alt-üst etmiş oldu. Əslində bu, radikalların sadəcə məğlubiyyəti deyil, sözün əsl mənasında iflası oldu.

Təəssüf ki, hər vəchlə Azərbaycanın demokratik imicinə kölgə salmağı özlərinin həyat kredosu elan etmiş radikal müxalifət seçkidən sonra da bəd əməllərindən əl çəkmir, aldıqları sifarişlərə uyğun olaraq artıq arxada qalmış seçkilərin "nəticələrinə etiraz" bəhanəsi ilə qarşıdurma yaratmağa, sabitliyi pozmağa çalışır. Ancaq əvvəllər də dəfələrlə olduğu kimi, indi də lənətlənmiş beşinci kolon adını götürmüş radikal müxalifətin bütün səyləri boşa çıxır və çıxacaq. Ona görə ki, əvvəla, ölkədəki inkişafı və sabitliyi yüksək qiymətləndirən xalqımız buna imkan verməz. İkincisi isə, xalqın rəğbətini qazanmaqda qeyri-adi fərasətsizlik göstərən uğursuz radikal müxalifət beşinci kolon kimi də bacarıqsızlığı və qabiliyyətsizliyi ilə seçilir. Bəlkə də bu mənada Azərbaycanın bəxti gətirib" - deyə Baş nazirin müavini əlavə edib.

O qeyd edib ki, siyasi tariximizin artıq bir parçasına çevrilmiş 9 fevral seçkiləri bir daha Azərbaycan mühitində və siyasətində radikalizmə yer olmadığını göstərdi: "Bu, xalqın həm rəyi, həm də iradəsidir. Radikal müxalifət hər şeydən əvvəl onun özünə lazım olan həmin həqiqəti nə qədər tez dərk etsə, o qədər yaxşıdır. Sözlərimi müsbət notlarla bitirmək istəyirəm. İki ay davam edən seçki həyəcanı artıq arxadadır. İradəsini ifadə edən seçicilər, seçki marafonunun qalibləri rahatlıqla nəfəs alır, təbrikləri qəbul edirlər. Onların sırasında partiyamızın seçki kampaniyasının uğurla başa çatmasına qiymətli töhvə vermiş çoxsaylı könüllüləri ayrıca qeyd etmək, minnətdarlığımı bildirmək istəyirəm. Seçkilərin əsas qalibləri isə, heç şübhəsiz, Azərbaycan xalqı və onun lideri Prezident İlham Əliyevdir. Bugünlərdə Türkiyənin, Rusiyanın və digər dövlətlərin başçılarının ünvanladığı təbriklər deyilənlərin birbaşa ifadəsidir".

# MSK-nın qarşısında radikal toplantılar cəmiyyətin seçkiyə ümumi münasibətinə adekvat deyil

**Növbədənkənar parlament seçkilərinin tam ideal keçdiyini iddia etmək olmaz. Bəzi dairələrdə aşkar qanun pozuntularının olduğunu əks etdirən videoalar paylaşılıb. Seçki prosesində qanun pozuntuları ilə bağlı MSK-ya şikayətlərin olduğu və bunların araşdırıldığı bildirilir.**

2015-ci il seçkiləri aktivlik cəhətdən indikindən çox geri qalırdı. Ancaq həmin seçkilərdə bir dairənin nəticələri ləğv edildi. İndi də bu ola bilər. Yəni qanuni mexanizmlərlə kiminsə mübarizə aparıb, nəticə əldə etməsinə kimsə mane ola bilməz. Ancaq diqqətimizi fevralın 11-də MSK qarşısında keçirilən aksiya çəkdi. Daha çox müxalif mövqeyi ilə seçilən və eyni mərkəzlərə bağlılığına şübhə olmayan həmin adamların seçdiyi taktikada təsadüf elementləri, demək olar ki, yox dərəcəsində idi.

Aksiya dünyanın böyük ölkələrinin birinin seçkilərlə bağlı verdiyi mənfi bəyanatdan sonraya təsadüf etdi. Dərhal Qərbin bəzi dairələrinə sıx bağlı olan namizədlər hərəkətə keçdilər. Adama deyərlər ki, seçki mühitinə inanmırdınsa, niyə prosesdə iştirak edirdin? Sən də digər radikallar kimi boykotu seçə bilərdin. Seçməyibsənsə, narazılığın varsa, buyur, qanuni mexanizmlərlə haqqını tələb et. Bunu etmirsənsə, deməli, məqsəd səs uğrunda mübarizə yox, başqadır.

Nədənsə, MSK-nın önündə yerə sərilənlərin arasında biz seçkidə iştirak edib və məğlub olan daha tanınmış müxalif liderləri görmədik. Niyəsi bəllidir, çünki onlar bu şəbəkədən idarə olunmurlar. MSK qarşısındakı aksiya bir müddət İlqar Məmmədovun da iştirak etdiyi və "Torqovı"dakı "Qadına şiddətə son" aksiyasını bizə xatırlatdı. Orada rolda olanlar MSK qarşısında da baş roldaydılar. Həmin aksiyanı təşkil edilmiş saymaq olarmı və bunda başlıca məqsəd nə idi?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bir qrup deputatlığa namizədin Azərbaycan Mərkəzi Seçki Komissiyasının binası qarşısında seçkilərin nəticəsinə etiraz əlaməti olaraq aksiya keçirməyə cəhd etməsi təsadüf deyil: "MSK-nın binası qarşısındakı etiraz aksiyasına seçkilərin nəticələrindən narazı qalmış digər namizədlər, həmçinin, bir sıra müxalif simalar da qoşulublar.

Ümumiyyətlə, onu qeyd edək ki, seçki marafonu dünyanın hər bir yerində müəyyən narazılıqlarla müşayiət olunan bir prosesdir. Fikrimcə, bu mövzuda son illərin ən görkəmli nümunəsi Hillari Klinton və Donald Trampın ABŞ prezidentliyi seçkisi ətrafında baş verən qalmaqal idi.

Son illər bütün dünyada seçki ərəfəsi və sonrası prosesdə iştirak edən qruplara kənardan dəstək, kömək və s. edilməsi də adi praktikadır. Elə haqqında danışdığımız ABŞ prezidentliyi qalmaqalı da həmçinin, onu istər ABŞ daxilində, istərsə də xaricində müxtəlif dairələrin öz məqsədləri üçün istifadə etməsini hamılıqla müşahidə etdik.

Azərbaycan da bu mövzuda istisna deyil. Seçki ərəfəsi və sonrakı mərhələlərdə baş verən prosesləri daxili və xarici qruplar öz məqsədləri üçün isitifadə etməyə çalışırlar.

Məsələn, elə haqqında danışdığımız, MSK qarşısındakı razılaşdırılmamış etiraz aksiyası. Daxili qrupların siyasi məqsədlərdə belə aksiyaları öz maraqları üçün istifadəsi adi bir praktikadır. Etiraz edən bir şəxs görən kimi bir neçə siyasi qrup bu məqamı mütləq siyasi yatırım olaraq istifadə etməyə və mənimsəməyə çalışır.



Xarici dairələrin də MSK önündəki razılaşdırılmamış etiraz aksiyasını bundan öncəkilər kimi istifadəsini izlədik. Məsələn, diqqətimi çəkən maraqlı bir nüans ABŞ Dövlət Departamentinin mətbuat katibi Morgan Ortagusun ölkəmizdəki seçkilərlə bağlı neqativ dəyərləndirməsi ilə MSK-nın qarşısındakı etiraz aksiyasının aşağı-yuxarı 2-3 dəqiqə fərqlə, demək olar ki, eyni vaxtda başlaması oldu. Sanki start verilmiş kimi. Bu halı mərama uyğun müxtəlif məqamlarla təhlil edə bilərik, cəmiyyətə dəstək, təşkilatçı siyasi qüvvələrə dəstək və ya koordinasiyalı fəaliyyət və s.

Bəzi obyektiv narazılıqları nəzərə almadan, ümumilikdə, keçirilən parlament seçkilərindən daha fərqli xarici dairələri öz maraqları üçün istifadə etmək cəhdlərini görürük.

Məsələn, seçki monitorinq qruplarında pozitiv məqamlar haqqında susaraq, neqativ rəyləri qabardan (bu məqamların mövcudluğu hələ müzakirə mövzusudur, çünki yekun rəy hələ mövcud deyil) ənənəvi mühacir "söyüş müxalifəti" də MSK önündəki etirazlardan ilhamlandı, 2016-cı il aprel müharibəsi zamanı ermənilərin xeyrinə təbliğat aparan, ümumiyyətlə, rəhbərliyi və idarəçiliyi ermənilərə bağlı olması haqqında səhih məlumatlar olan "Meydan TV", yağışdan sonra artan göbələklər qədər çoxalan saysız-hesabsız internet tv-lər və s. anidən fəallaşdı.

Lakin son bir ildə müşahidə etdiyim və fevralın 11-də də özünü göstərən daha bir təhlükəli tendensiyanı qeyd etmək istəyirəm. Məsələ ondadır ki, zamanında Azərbaycanda dövlətə xəyanət və xarici xüsusi xidmətlərlə işbirliyinə görə uzun illər həbs yatmış şəxslərin mühacir-müxalif qruplar və onların ölkə daxilindəki müxalif siyasi qruplarla koalisiyası adlandıra biləcəyimiz bir ittifaq mövcuddur ki, bu da özünü sözügedən aksiyada daha aydın göstərdi.

Məhz həmin aksiyada da bu şəxslər və onlara bağlı sosial şəbəkələrdəki hesablar, bəzi saytlarda yayımlanan, faktiki olaraq, əhalini dövlətə tabesizliyə təşviq etmək, qanunsuzluqlar, təxribatlar törətməyə çağırışlar etdilər.

**Burada onu da qeyd edim ki, MSK önündəki etirazlarda aparıcı simaları izlədikdə, bu simaların daha öncəki etiraz aksiyalarında da aparıcı sima olması diqqət çəkir. Bir neçə ay öncə İstanbul Konvensiyası üçün aksiya təşkil edənlər, qadınlara şiddətə görə etiraz edənlər indi də seçkiyə ediraz edirlər. Sabah da digər bir mövzuya etiraz edəcəklər. Bu daha çox özünü təsdiqləməyə çalışan bir qrup etiraz ruhlu gəncin növbəti aksiyasıdır.**

Sadəcə, gənclər addımlarında ehtiyatlı olmalı, onların səmimiyyətlə cəmiyyətin daha yaxşı olacağı inamı ilə atdıqları addımların daxili və xarici məkrli qrupların çirkin məqsədlərində alət olmamalarına diqqət yetirməlidirlər".

***Məhəmmədəli QƏRİBLİ***

# Seçkidə uduzanların "28 May"da mitinq müraciətinə "yox" deyildi

**Bakı şəhər İcra Hakimiyyəti (BŞİH) Müsavat, REAL partiyaları və digər müxalifət nümayəndələrinin Bakıda mitinq keçirməklə bağlı müraciətinə cavab verib.**



İcra Hakimiyyətindən "Trend"ə verilən məlumata görə, meriyada müraciətə baxılıb və mitinqin keçirilməsinə razılıq verilməyib.

**Xatırladaq ki, Müsavat, REAL partiyaları, D 18 təşkilatı və müstəqil namizədlər seçkidə baş verənlərlə bağlı Bakı şəhəri, Nəsimi rayonu, metronun "28 May" stansiyasının qarşısındakı meydanda mitinq keçirmək barədə BŞİH-ə müraciət etmişdi.**

# Radikal düşərgə namizədlərinin seçkidə biabırçı nəticələri - hətta bütün dairə üzrə 220 səs alanlar var...

**Növbədənkənar parlament seçkisində nəticələri maraqla izlənən dairələrdən biri olan 15 saylı Yasamal 1-ci Seçki Dairəsində əsas mübarizə Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu, Müsavat Partiyasının başqanı Arif Hacılı və həmin dairəni köhnə parlamentdə təmsil etmiş müstəqil namizəd Ülvi Quliyev arasında gedib.**

***Rəfail Becanov:** "Bu bir daha göstərdi ki, seçici ilə müxalifətdə olan siyasi partiyalar arasında bir uçurum mövcuddur"*

YAP isə bu dairədən Rauf Nağıyevin namizədliyini irəli sürmüşdü. Lakin lap əvvəldən hakim partiyanın bu namizədinin şansının çox olmadığı məlum idi.

Rəsmi nəticələrə görə, Ü.Quliyev 4071 səs topladığı halda, YAP-ın namizədi 614 səs, Arif Hacılı 291 səs, Sərdar Cəlaloğlu isə cəmi 218 səs yığıb. Bu dairədəki 31 məntəqədən ikisində S.Cəlaloğluya 0 səs, üçündə isə Arif Hacılıya cəmi 2 səs verilib.

Göründüyü kimi, rəsmi nəticələrdə müstəqil namizəd olan Ü.Quliyevin kifayət qədər tanınmış və az-çox təşkilatlanmış partiyaların sədrlərinin hər birindən ayrı-ayrılıqda 20 dəfə artıq səs topladığı göstərilir. Müxalifəti təmsil edən tanınmış partiyaların sədrlərinin topladıqları biabırçı sayda səsin səbəbini nə ilə izah etmək olar?

Razi Nurullayevin rəhbərlik etdiyi Azərbaycan Xalq Cəbhəsi Partiyasının funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə bir hal onu da dərindən maraqlandırıb: "Bu məsələni bir qədər fərdiləşdirmək istəməzdim. Başqa müxalifət liderləri də var ki, elə buna bənzər səs toplayıblar. Bu bir daha göstərdi ki, seçici ilə müxalifətdə olan siyasi partiyalar arasında bir uçurum mövcuddur. Söhbət bəzi məntəqələrdə baş verən neqativ hallardan getmir. Problem bundadır ki, həmin partiyaların tərəfdarları seçkiyə gəlib, əsl seçki ajiotajını yarada bilmirlər. Bu da sosial bazaya bağlı olan məsələdir. Sosial bazası tamamilə zəifləmiş radikal müxalifət bunu son nəticələrdə də hiss etmiş oldu. Əhalinin böyük əksəriyyəti dinamikanın, təkamülün tərəfdarı olduğuna görə radikal düşüncəni dəstəkləmir.



**Biz bunun bir daha şahidi olduq. Müxalifət partiyalarının sədrlərinin olduğu dairələrdə seçki ajiotajı yaranmadı. Bu hal, bütövlükdə, siyasi partiya sisteminə təsir edən məsələdir. Düşünülməlidir ki, hansı siyasi xətlə inkişaf mümkündürsə, o yolla gedilsin. Yoxsa, gələcək nəticələr bundan da pis olacaq".**

***Məhəmmədəli QƏRİBLİ***

# 2010-cu il seçkilərindən sonra ardıcıl səs itirən deputatlar - seçkidən-seçkiyə bəziləri üçün səs tənəzzülünün səbəbləri...

**Məlum olduğu kimi, fevralın 9-da Azərbaycanda növbədənkənar parlament seçkiləri keçirildi. Seçkilərin nəticələri onu deməyə əsas verir ki, bəzi deputatlar artıq üçüncü dəfə Milli Məclisdə öz yerlərini tutacaqlar. Ancaq müşahidələr göstərir ki, seçilən çoxsaylı namizədin son üç parlament seçkisində topladıqları səs faizləri aşağı düşüb.**



***Məhərrəm Zülfüqarlı:** "Bəzi namizədlər deputat olmaq üçün seçicilərə çoxsaylı vəd verir, amma seçiləndən sonra, nədənsə, həmin vədlər yaddan çıxır"*

Yəni 2010-cu ildə topladığı səs faizini 2015-ci ildə əldə edə bilməyib. 2020-ci ildə növbəti dəfə millət vəkili seçiliblər. Bu zaman 2015-ci illə müqayisədə daha az səs toplayıblar.

İctimaiyyətin yaxından tanıdığı deputatların bir çoxu üçüncü dəfə deputat seçilsə də, topladıqları səs faizi 2010-cu ilin nəticələri ilə müqayisədə az olub. Elə millət vəkili var ki, 2010-cu ilin parlament seçkiləri ilə müqayisədə 20 faiz az səs toplayıb. Bu da onlara göstərilən etimadın əvvəlki illərlə müqayisədə azalmasını göstərir.

Digər tərəfdən, 10 il əvvələ qayıdıb seçki nəticələrinə nəzər saldıqda bir sıra digər rəqəmləri müqayisə etmək olar. Məsələn, 2010-cu ildə keçirilən parlament seçkilərində 46 seçki məntəqəsində səsvermənin nəticələri etibarsız hesab edilib. Ümumilikdə, 2010-cu ildə seçkilərdə 33 partiya və 690 namizəd iştirak edib. Beş il sonra, yəni 2015-ci ildə keçirilən növbəti parlament seçkilərində səsvermənin nəticələri etibarsız hesab edilmiş 58 seçki məntəqəsi müəyyən edilib. 2015-ci ildə seçkilərdə 769 namizəd iştirak edib.

2020-ci ildə keçirilən növbədənkənar parlament seçkilərində səsvermə 125 seçki dairəsi üzrə 5573 məntəqədə keçirilib. 2020-ci ildə seçkilərdə 2431 nəfər namizədliyini irəli sürüb. Deputatlığa namizədliyi qeydə alınmış 1637 nəfərdən seçki gününə qədər 321 nəfəri deputatlığa namizədliyini geri götürüb, MSK tərəfindən isə iki nəfərin deputatlığa namizədliyi ləğv edilib. Yekun olaraq parlament seçkilərində 1314 nəfər deputatlığa namizəd mübarizə aparıb.

Onu da qeyd edək ki, üçüncü dəfə millət vəkili olan və səs faizi azalan deputatlar Prezidentin siyasi kursunu dəstəkləyirlər. Ancaq İlham Əliyev 2003-cü ildə Prezident seçildikdən sonra ona göstərilən etimad azalmayıb. Hər dəfə prezident seçkiləri keçirilındə ölkə başçısının topladığı səs azalmayıb, əksinə, artıb. Belə olan halda, üçüncü dəfə millət vəkili olanların səs faizi niyə azalır?

*"...həmin millət vəkillərinə etimadın azalan xətt üzrə inkişafına təsir edir"*

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, üçüncü dəfə deputat olanların səs faizlərinin azalması müxtəlif amillərlə bağlıdır: "Bunun bir səbəbi yaş faktoru ilə bağlıdır. Məsələ ondadır ki, bəzi millət vəkilləri cavan vaxtı daha aktiv kampaniyada iştirak ediblər. Seçicilərlə intensiv görüşlər keçiriblər, şikayətlərini dinləyiblər, bəzi problemlərin həllinə səy göstəriblər. Yaşa dolduqdan sonra əvvəlki aktivlik azalmağa başlayıb. Çünki əvvəlki enerji olmayıb. Bu da, istər-istəməz, seçicilərin onlara olan etimadının azalmasına öz təsirini göstərib. Nəticədə hər seçkidə əvvəlki ilə müqayisədə az səs toplayırlar. Səs faizinin azalmasının digər səbəbi də var.

Məsələ ondadır ki, bəzi namizədlər deputat olanda seçicilərə çoxsaylı vəd verirlər. Verilən vədlər seçicilərin diqqətini cəlb edir. Deputat olandan sonra isə, nədənsə, həmin vədlər yaddan çıxır. Bu da, öz növbəsində, həmin millət vəkillərinə etimadın azalan xətt üzrə inkişafına təsir edir. Başqa bir tərəfdən, bəzi deputatların seçicilərlə iş aparması zəifdir. Deməyim odur ki, müxtəlif faktorlar burada rol oynayır. Prezident İlham Əliyevin nüfuzuna gəldikdə isə, ölkə başçısı böyük işlər gördüyü üçün onun reytinqi azalmır. Son illər ölkəmizin sürətli inkişafı buna əyani sübutdur".

***Vidadi ORDAHALLI***

# Səsvermə günü polislərin fəaliyyəti ətrafında ictimai-siyasi müzakirələrə daha bir ekspert rəyi...

***Vüqar Rəhimzadə:** "Şərəfli peşə sahibi olan polislərimizi qınamaqdansa, qanunlarımızın aliliyinə, asayiş keşikçilərinin qanuni tələblərinə əməl etmək lazımdır"*

**"Ölkəmiz öz qürurlu tarixində daha bir siyasi kampaniyanı uğurla başa vurdu. 9 fevral parlament seçkiləri demokratik inkişaf istiqamətində atılan növbəti addım kimi yaddaşlara yazıldı. Bunu təkcə ölkə ictimaiyyəti deyil, seçkiləri müşahidə etmək üçün Azərbaycana gələn beynəlxalq müşahidəçilər də öz hesabatlarında, açıqlamalarında xüsusi olaraq vurğuladılar.**



Heç şübhəsiz ki, bu faktlar, demokratik, şəffaf və ədalətli formada təşkil olunan parlament seçkiləri həyata keçirilən siyasi islahatların növbəti mərhələsi kimi yüksək qiymətləndirilir". Bu fikirləri KİV-ə açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə söyləyib.

"İki sahil" qəzetinin baş redaktoru bildirib ki, ölkəmizin uğurlarına sevinənlərlə bərabər, inkişafımıza qısqanclıqla yanaşan xarici və daxili dairələr də öz çirkin əməlləri ilə hələ də "nəfəs aldıqlarını" nümayiş etdirməyə çalışırlar: "Daxili İşlər Nazirliyinin dünən yaydığı məlumatda da qeyd edildiyi kimi, Mərkəzi Seçki Komissiyasının (MSK) qarşısında bir qrup şəxs icazəsiz aksiya keçirməyə cəhd edib. MSK nümayəndələri onlarla söhbət aparmağa çalışıblar, amma icazəsiz aksiyada iştirak edənlər buna məhəl qoymayaraq öz qanunsuz hərəkətlərini davam etdiriblər. Əraziyə gələn polis əməkdaşları qanunsuz aksiyanın dayandırılmasını tələb ediblər. Bütün xəbərdarlıqlara baxmayaraq, onlar yenə də öz əməllərindən əl çəkməyiblər. Təbii olaraq polis qanunun tələb etdiyi kimi, öz vəzifə borcunu yerinə yetirərək bu qeyri-qanuni aksiyanın qarşısını alıb. Bu, bir qürurverici faktdır ki, Azərbaycan hüquqi dövlətdir. Ona görə də hər kəs ölkə qanunlarına əməl etməli, ona tabe olmalıdır. Təbii ki, belə özbaşınalıqların qarşısı daim dövlətçiliyin keşiyində dayanan Azərbaycan polisi tərəfindən qətiyyətlə alınacaq, qanunsuz əməllərə və hərəkətlərə hüquqi qiymət veriləcək."

Parlament seçkilərində məğlub olmuş bəzilərinin sifarişini yerinə yetirən bu qanun pozucuları dərk etməlidirlər ki, Azərbaycanın Milli Məclisi 125 nəfərdən formalaşır və qanunverici orqana ən yüksək səs toplamış qaliblər deputat seçilir. Bu il parlament seçkilərində rekord həddə namizəd qeydə alınmışdır. Namizəd olmuş 1500-ə yaxın insanın hamısını 125 yerə sığışdırmaq mümkün deyil. Bu, seçkidir. Bu, bir siyasi mədəniyyət tələb edən böyük siyasi aksiyadır. Bu reallığı hər kəs anlamalı, məğlub olmuşlar isə öz riyakar niyyətlərindən əl çəkməli, məğlubiyyətlərini etiraf etməli, qalib olmuşlara xoş arzularını ifadə etməlidirlər. Budur sivil seçki mədəniyyətinə xidmət, bunun əksinə olaraq qanunları pozub hansısa qüvvənin, yaxud kimlərinsə çirkin sifarişlərini yerinə yetirmək ən böyük cinayətdir. Cinayət isə cəzasız qalmamalıdır. Kimliyindən asılı olmayaraq bütün vətəndaşlar qanunun aliliyinə və insanların seçiminə hörmətlə yanaşmalı, qanunun qarşısında bərabərhüquqlu məsuliyyət daşımalıdır. Şübhə etmirəm ki, bu hərəkətləri və əməlləri törədənlərə qarşı qanunun aliliyi ilə yanaşılacaq, qanunu pozan insanlar layiqli cəzalarını alacaqlar.

Vüqar Rəhimzadə vurğulayıb ki, 9 fevral parlament seçkilərində səsvermə zamanı sosial şəbəkələrdə yayılan bəzi videolarda polisin guya zorakılığa yol verməsi ilə bağlı fikirlər formalaşdırılmağa da cəhdlər olub: "Sözsüz ki, bütün bunlar qərəzli və ədalətsiz yanaşmalardır. Qeyd edək ki, polis yalnız Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş halda - rəsmi dəvət əsasında seçki məntəqələrinə gəlib asayişi bərpa edir, qanunauyğun tədbirlər həyata keçirir. Bəli, biz bir məntəqədə buna rast gəlmişik. Məntəqə sədri qanunvericiliyin tələbinə uyğun olaraq, ərazidə xidmət aparan polis əməkdaşlarını məntəqəyə dəvət edib və orada olan müşahidəçinin seçki prosesinə yersiz müdaxilə etməsini və seçicilərin normal səs verməsinə maneələr yaratdığını bildirib. Polis həmin şəxsi nizam-intizama dəvət edib, ondan məntəqəni tərk etməsini istəyib. Amma həmin şəxs polisin qanuni tələbinə əməl etməyib və müqavimət göstərib. Polislər güc tətbiq etməklə onu məntəqədən kənarlaşdırıblar. Ciddi xəbərdarlıqdan sonra onun yenidən məntəqəyə daxil olmasına icazə verilib. Hesab edirəm ki, polis səsvermə günü öz xidmətini yüksək səviyyədə, qanunun tələbinə uyğun formada həyata keçirib, seçicilərin rahat formada səs verməsi üçün lazım olan bütün tədbirlər görülüb".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, polisi qaralamaq, onun fəaliyyətinə kölgə salmaq siyasi riyakarlıqdır və bu kimi hallar qəbuledilməzdir: "Nəzərə almaq lazımdır ki, polis qanunun ona verdiyi imkanlar daxilində hərəkət edir. Polisin əsas vəzifəsi isə ölkədə asayişi, insanların təhlükəsizliyini qorumaqdır. Əgər kimsə qanunu pozursa qarşısında asayiş keşikçisini görəcək. Bu, dünyanın hər yerində belədir.

Götürək elə Avropa ölkələrini. Zaman-zaman biz bu ölkələrdə insanların keçirdikləri aksiyaların və polislə qarşıdurmaların şahidi oluruq. Heç kim deyə bilməz ki, qanunu kobud şəkildə pozan, vəhşilik edən hansısa şəxsin hərəkətlərinə göz yumulur. Əgər kimsə polisin nəzakətli formada edilən tələbinə əməl etmirsə, ona qarşı güc tətbiq etmək artıq qaçılmazdır. Bütün bunlar da polisin qanuni vəzifələridir. Hər zaman təhlükəsizliyimizin keşiyində dayanan, şərəfli peşə sahibi olan polislərimizi qınamaqdansa, qanunlarımızın aliliyinə hörmət etmək və polisin qanuni tələblərinə sözsüz əməl etmək lazımdır".

# Yeni Milli Məclisin ən gənc və ən yaşlı deputatları...

**Ölkədə keçirilən son parlament seçkilərinin nəticəsi, demək olar ki, tam məlumdur. Kiçik dəyişikliklərin ola biləcəyini də nəzərə alsaq, əminliklə yeni tərkibi elan etmək mümkündür. İstərdik artıq seçilmələri şübhə doğurmayan millət vəkilləri ilə bağlı kiçik araşdırma aparaq.**



Maraqlıdır, yeni millət vəkillərinin yaş tərkibi necə müəyyənləşib və parlamentin cavan və yaşlı deputatlarının kimlər olmasına nəzər salaq.

Yeni parlamentin ən yaşlı deputatı Fəttah Heydərovdur. O, 1938-ci il fevralın 23-də Naxçıvan MR-nın Babək rayonunun Çeşməbaşar kəndində anadan olub. 1990-1995-ci illərdə Naxçıvan MR Ali Sovetinin deputatı olub. Azərbaycan Respublikası I (1995-ci il), II (2000-ci il), III (2005-ci il) IV (2010-cu il) çağırış Milli Məclisinin deputatı olub. O, 1 noyabr 2015-ci il tarixində Azərbaycan Respublikası V çağırış Milli Məclisinin deputatı seçilib.

Yeni mandat alanların sırasında olan Ziyad Səmədzadənin 80, Eldar İbrahimovun 74, Rafiq Məmmədhəsənovun 74, Hüseynbala Mirələmovun 75, Mixail Zabelinin 74, Vahid Əhmədovun 73, Madər Musayevin 73, Əhliman Əmiraslanovun 73, Fəzail Ağamalının 73, Hadi Rəcəblinin 73, İsa Həbibbəylinin 71 yaşı var. Onların demək olar ki, hamısı təkrarən deputat seçilir.

Parlamentə düşən və yaşı 40-dan az olan deputatlar da az deyil. Onların adına nəzər saldıqda məlum olur ki, böyük əksəriyyəti ilk dəfədir millət vəkili seçilir. Ən gənc deputatın 26 yaşı var. Bu, Səbinə Xasayevadır. Namizədliyi YAP tərəfindən irəli sürülən Xasayeva 12 saylı Qaradağ-Binəqədi-Yasamal Seçki Dairəsindən Milli Məclisə deputat seçilib. Qeyd edək ki, S.Xasayeva Lökbatan Bələdiyyəsində sədr müavinidir.

63 saylı Sabirabad 1-ci Seçki Dairəsindən seçilən Cəfərov Kamal Xaqani oğlunun 31 yaşı var. Onun namizədliyi YAP tərəfindən irəli sürülüb.

Digər gənc deputat 99 saylı Şəmkir kənd Seçki Dairəsindən seçilən Həsənov Nurlan Urfan oğludur. Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsində məsləhətçi olan N.Həsənov 32 yaşındadır. O, 1988-ci ildə anadan olub. Namizədliyi YAP tərəfindən irəli sürülüb.

24 saylı Nizami 1-ci Seçki Dairəsindən qalib gələn Nurullayeva Könül Oruc qızı 35 yaşındadır. O, 1985-ci ildə anadan olub. "Eventoc" tədbir əməliyyat komitəsinin baş direktorunun müavini olan K.Nurullayevanın namizədliyi öz təşəbbüsü ilə irəli sürülüb. Bitərəfdir.

96 saylı Goranboy-Naftalan Seçki Dairəsindən adı qaliblər siyahısında olan Məmmədov Anar İlyaz oğlu 36 yaşındadır. O, 1984-cü ildə anadan olub. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində şöbə rəisi olan A.Məmmədovun namizədliyi YAP tərəfindən irəli sürülüb.

66 saylı Biləsuvar Seçki Dairəsindən qalib olan Məhərrəmov Bəhruz Abdurrəhman oğlu 1983-cü il təvəllüdlüdür. 37 yaşlı deputat "Paşa Sığorta" ASC-də korporativ hüquq xidmətinin rəhbəri olub. Bitərəfdir.

29 saylı Səbail Seçki Dairəsindən deputat seçilən Arpadarai Nigar Cavid qızı 1982-ci il təvəllüdlüdür.

38 yaşlı deputat bu vaxta qədər "Bakı Şəhər Halqası" əməliyyat şirkətinin marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri işləyib. Bitərəfdir. Namizədliyi öz təşəbbüsü ilə irəli sürülüb.

**59 saylı Salyan Seçki Dairəsinin deputatı Əhmədova Jalə Fərhad qızı 1981-ci il təvəllüdlüdür. 39 yaşlı J.Əhmədova Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətində işləyib. Bitərəfdir. Namizədliyi öz təşəbbüsü ilə irəli sürülüb.**

*Məhəmmədəli* **QƏRİBLİ**

# Ermənistan Prezidenti İordaniya Kralının üzünə ulu babasının tarixinə dair yalan uydurdu, Kral susdu...

**İordaniya Haşimilər Krallığının başçısı Kral Hüseyn əl-Haşimi Ermənistanda rəsmi səfərdədir. Onu öz iqamətgahında Ermənistan Prezidenti Armen Sarkisyan qarşılayıb. A.Sarkisyan bildirib ki, kralın səfəri tarixi əhəmiyyətlidir: "Bizim xalqlar arasındakı dostluq münasibətlərinin dərin tarixi var. Hətta minilliklər əvvələ təsadüf edir".**



***Hatəm Cabbarlı:** "Ermənistan Prezidenti bunu vurğulamaqla xristian ermənilərlə müsəlman ərəblərin arasında problemin olmadığını bildirmək istəyir"*

Ermənistan Prezidenti öz adından kralın ailəsinə təşəkkür edib: "Sizin ulu babanız Məkkənin şərifi olanda bütün Ərəb dünyasına bir manifestlə müraciət edib. Məhz o, ərəblərdən xahiş etdi ki, Osmanlının "soyqırımından" əziyyət çəkən ermənilərə sahib çıxsınlar".

Göründüyü kimi, Ermənistan Prezidenti yenidən öz erməni xislətini işə salır. İordaniya kimi müsəlman ölkəsini öz siyasətinə qurban edir və bunun da fonunda kralın üzünə yalan danışır. Əvvəla Azərbaycanla müxtəlif platformalarda yaxından əməkdaşlıq edən İordaniyanın Ermənistanla bu şəkildə yaxınlaşması təəccüblüdür. Çünki dəfələrlə Azərbaycan Prezidenti müsəlman ölkələrini Ermənistanla əməkdaşlıqdan çəkinməyə çağırıb. Bunun da səbəbini onların müsəlmanlara olan mənfur münasibəti ilə izah edib. Buna baxmayaraq, İordaniya məscidləri yandıran, müsəlmanlara divan tutan bir ölkə ilə əməkdaşlığa üstünlük verir. Eyni zamanda, kral Ermənistan Prezidentinə şərait yaradır ki, onun babalarının adı ilə Türkiyənin ünvanına həqarətlər yağdırılsın. Əvvəla Osmanlı Türkiyəsi uzun yüzilliklər boyu bütün Ərəb dünyasını öz nəzarətində saxlayıb. İordaniya kralları da Osmanlı əsarətindən qurtarmaq üçün belə bir şəri Türkiyənin ünvanına ata bilərdi. İkinci versiya isə bunun, ümumiyyətlə, olmamasıdır.Yəni Sarkisyan yalan danışır. Hər iki halda, İordaniya Kralı onun cavabını verməliydi. O isə əvəzində bundan xoşhal olub.

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistan müstəqilliyini əldə etdikdən sonra Ərəb dünyasına yönəlik müəyyən addımlar atıb: "Bura ölkələrlə siyasi münasibətləri yaxşılaşdırmaq, iqtisadi münasibətləri tənzimləmək, turizm sahəsində yaxından əməkdaşlıq etmək aiddir. Bizim çağırışlarımıza baxmayaraq, Ermənistanın bir çox ərəb ölkəsi ilə münasibətləri yaxşıdır. Xüsusilə də Yaxın Şərq ölkələri ilə bu münasibətlər çox normaldır. Çünki həmin coğrafiyada ermənilər kompakt yaşayırlar.

İordaniya Kralının səfəri Ermənistanla münasibətləri daha da dərinləşdirməyə hesablanıb. Bu həmin ölkə kralının Ermənistana ilk səfəridir. Tərəflərin görüşündə Sarkisyan guya tarixə ekskurs edib. Böyük etimalla, Məkkənin şərifi olan şəxs Osmanlıdan ayrılmaq üçün belə bir bəyanat verib. Yəni bu, tarixi həqiqətlərə söykənməyib, siyasi manevr cəhdi olub. Ermənistan Prezidenti bunu vurğulamaqla xristian ermənilərlə müsəlman ərəblərin arasında problemin olmadığını bildirmək istəyir. İkinci Abdulla Ermənistana səfər edərkən başqa istiqamətlərdə də münasibətləri inkişaf etdirməyi qarşısına məqsəd qoyub. Onun bu cəhdləri müsəlman həmrəyliyi baxımından yaxşı qarşılanmır. Çünki Ermənistan müsəlmanlara qarşı daim nifrətlə yanaşıb.

**Biz deyə bilmərik ki, İordaniya Kralı bu addımları məlumatsızlıqdan atır. Çünki Azərbaycan bütün platformalarda Ermənistan vəhşiliklərini ətraflı nəzərə çatdırıb. Ermənistan mümkün qədər İordaniya ilə münasibətləri inkişaf etdirməyə çalışacaq. Bunun üçün Ermənistanın siyasi, iqtisadi potensialı nə qədərdir sualı da meydana çıxır. Azərbaycan bu istiqamətdə diplomatik səylərini artırmalıdır".**

*Məhəmmədəli* **QƏRİBLİ**

# Ermənilərin aprel döyüşləri barədə yeni variantına Rusiyadan rəsmi zərbə...

**Rusiya Xarici İşlər nazirinin müavini Andrey Rudenko "RİA Novosti" agentliyinə müsahibəsində deyib ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Rusiya həmişə fəal vasitəçilik mövqeyi tutub. Onun sözlərinə görə, Rusiya 2016-cı ilin aprelində Azərbaycanla Ermənistan arasında başlanan müharibəni dayandırdı:**

*"Müharibə bir qədər də davam etsəydi, o zaman Azərbaycan əlavə strateji və taktiki üstünlüklərə sahib olardı"*

## ***İbrahim Rüstəmli:*** *"Ermənilər bu cür açıqlamalar verməklə barələrində saxta mif yaradırlar"*




"Bildiyiniz kimi, Rusiya Azərbaycan və Ermənistanın Baş Qərargah rəislərini Moskvaya dəvət etməklə, 2016-cı ildə genişmiqyaslı hərbi əməliyyatların başa çatmasında həlledici rol oynadı".

Hər zaman baş verənləri təhrif etmək üzrə ixtisaslaşan erməni mətbuatı bu dəfə də sözügedən açıqlamanı öz maraqlarına uyğun dəyərləndirib. Erməni mətbuatı iddia edir ki, guya Rusiya vasitəçilik etməklə Ermənistanın əks hücuma keçməsinin qarşısını aldı. Guya Ermənistan ordusu əks hücumla itirilən mövqeləri də geri alardı, digər əraziləri də işğal edərdi: "Azərbaycanın hücumu və aprel müharibəsi başqa bir nöqtədə, əks hücuma hazırlaşan ermənilərin nəzarəti altında ola biləcək ərazilərdə dayandırılsa, Bakı bu gündəmdən qaça bilərmi? Rusiyalı ekspert Yevseyev müharibədən qısa müddət sonra Rusiyanın erməni əks hücumunu dayandırdığını bildirdi. Müharibədən bir qədər sonra Serj Sarkisyan Moskvada Baş Qərargah rəislərinin görüşü barədə elan etdi ki, orada nələrin müzakirə olunduğunu bilmir. Bəs onda niyə Serj Sarkisyan Xaçaturovu Moskvaya göndərdi? Xaçaturovu Moskvaya göndərdikdən sonra Sarkisyanın özü Berlinə uçdu. Orada Merkel ilə görüşdə 80-ci illərin silahlarından və güclü müttəfiqlərinin olmamasından şikayətləndi".

Göründüyü kimi, ermənilər belə rəy yaratmağa çalışırlar ki, guya onlara imkan verilsəydi, əlavə ərazilər işğal edərdilər. Hansı ki, bu belə deyil. Rusiya müdaxilə etməsəydi, Azərbaycan daha çox ərazini işğaldan azad edərdi. İstənilən halda, ermənilərin məsələyə məlum yanaşması nə dərəcədə əsaslıdır?

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, bu cür yanaşma ermənilərin uydurduğu fantaziyadır: "Bəli, Rusiya Azərbaycan və Ermənistan Baş Qərargah rəislərini öz ölkəsinə dəvət etməklə qarşıdurmanın daha da genişlənməsinin qabağını aldı. Ancaq bu o demək deyil ki, ermənilər əks hücuma keçib dönüş əldə edəcəkdilər. Qətiyyən bu belə deyil. Məsələ ondadır ki, 2016-cı ilin aprelində Azərbaycan Ordusu kiçik qüvvə ilə düşmən təxribatının qarşısını aldı və bir sıra strateji əhəmiyyətli mövqeləri işğaldan azad etdi.

Aprel döyüşləri erməni ordusu barəsində uydurulan əfsanələri darmadağın etdi. Ermənilər bu cür açıqlamalar verməklə barələrində saxta mif yaradırlar. Ancaq, əslində, bunların heç bir əsası yoxdur. Ermənilərin əks hücuma keçmək imkanları yox idi. Müharibə bir qədər də davam etsəydi, o zaman Azərbaycan əlavə strateji və taktiki üstünlüklərə sahib olardı. Çünki erməni ordusunun müdafiə səddi tamamilə məhv edilmişdi. Böyük panika yaranmışdı. Əslində, atəşkəs erməniləri xilas etdi. İndinin özündə də Ermənistan ordusunun Azərbaycan Ordusu ilə üz-üzə gəlmək imkanları məhduddur. Ona görə də erməni tərəfinin iddialarının heç bir əsası yoxdur".

***Vidadi ORDAHALLI***

# Özünü İrana dost sayan Ermənistanın İrandan kütləvi qaçqınlar dalğası qəbul etmək planları...

**Ermənistanın Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyi yanında Miqrasiya Xidmətinin rəhbəri Armen Qazaryan erməni mediasına açıqlamasında bildirib ki, qurum Livan və İrandan da daxil olmaqla, miqrasiya axınlarını proqnozlaşdırmağa çalışır.**



## ***Məhəmməd Əsədullazadə:*** *"Ermənistan regionda destruktiv informasiya sabotajı ilə məşğul olur"*

Onun sözlərinə görə, İran və Livandan Ermənistana axının mümkün olması ilə əlaqədar qurumda müzakirələr olub. Ermənistanın nə qədər qaçqın qəbul edə biləcəyi nəzərdən keçirilir: "Livan ermənilərinin köç etməsi ilə bağlı müəyyən bir dinamika var. Müasir dünyada miqrasiya axını o qədər sürətlə dəyişə bilər ki, hətta böyük mənbələr də kifayət etmir. Ortada 2015-2016-cı il hadisələrinin təcrübəsi var. Avropada hətta "fövqəladə vəziyyət planları" da işləmədi. Hərçənd dinamikanı mümkün qədər proqnozlaşdırmağa çalışırıq".

Belədə Ermənistan İranla dostluqdan danışır. İrana qarşı ola biləcək hücumları arzulamadıqlarını bəyan edirlər. Bu tərəfdən də vəziyyətin dəyişəcəyi halda İrandan ola biləcək qaçqınların qəbul edilməsi ilə bağlı proqramlar barədə danışırlar. Bununla, bir növ, dolayı da olsa, İranda baş verə biləcək humanitar böhranın anonsunu verirlər. Sanki ermənilər bununla İranda ciddi kataklizmlərin baş verəcəyinə əmindirlər. O üzdən, indidən müəyyən planlar üzərində işləyirlər. Bu, Ermənistanın İranla münasibətlərdə necə riyakar olmasının əyani göstəricisidir.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Ermənistan regionda təkcə işğalçı müharibə aparmır: "Həm də regionda destruktiv informasiya sabotajı ilə məşğul olur. Məhz Ermənistanın bu siyasəti qonşularına qarşı təcavüzkar siyasətin bariz nümunəsidir. Hesab edirəm ki, erməni mətbuatında dərc olunan bu kimi dezinformasiyalar İrana qarşı psixoloji müharibənin tərkib hissəsidir. Çünki İrana qarşı hər hansı bir hücum işartısı olmadan belə bir informasiyanın yayılması birbaşa İrəvanın çirkin niyyətlərindən xəbər verir. Gör vəziyyət nə həddə gəlib çatıb ki, Ermənistan tərəfdaşlıq etdiyi ölkənin maraqlarını da nəzərə almır. Bu gün İran-Ermənistan əlaqələrini nəzərə alsaq görərik ki, rəsmi Tehran Ermənistanla daim əməkdaşlıqda maraqlı görünüb. Bu əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdır. Ancaq Ermənistanın bu informasiya siyasəti İrana qarşı hər hansı bir hücum olarsa, o zaman dəyişəcək.

*"Erməni mətbuatında dərc olunan bu kimi dezinformasiyalar İrana qarşı psixoloji müharibənin tərkib hissəsidir"*

İndidən Ermənistanın qaçqınlar barədə düşünməsi İrəvanın Tehrana qaşı məkrli olduğunu göstərir. Hesab edirəm ki, Tehran tərəfindən buna mənfi reaksiya verilməlidir. İran Azərbaycan mətbuatında gedən adi bir yazıya görə sərt münasibət bildirirsə, buna da öz münasibətini bildirməlidir. Ancaq rəsmi Tehranın buna qarşı mövqe ortaya qoyacağı şübhə doğurur".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ məsələsi ilə bağlı pərdə arxasında maraqlı proseslər başlanıb

**Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Cenevrədə baş tutan məlum görüşdən sonra Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində hansı dəyişikliklərin baş verəcəyi ən aktual müzakirə mövzularından biri olaraq qalır. Görüşlə bağlı müxtəlif rakursdan kifayət qədər maraqlı fikirlər də səslənir.**

Hətta bəzi ekspertlər bildirir ki, Cenevrə danışıqlarından sonra Qarabağ konfliktinin sülh müstəvisində həlli istiqamətində əməli addımlar da atıla bilər.

Düzdür, rəsmi məlumatların azlığı, məxfilik prinsipinin qorunması hazırda danışıqlar masasında hansı istiqamətdə müzakirələrin aparıldığını tam təsəvvür etməyə imkan vermir. Amma yenə elə həmin rəsmi məlumatlardan çıxan nəticələr, eləcə də müxtəlif mənbələrdən daxil olan məlumatlar, ekspert rəyləri proses barədə müəyyən mülahizələr də yürütməyə əsas verir. Bu mülahizələr, əslində Qarabağ münaqişəsi ətrafında kifayət qədər intensiv müzakirələrə start verildiyini də deməyə əsas verir. Məsələ ilə bağlı rusiyalı politoloq Stanislav Tarasova görə, Cenevrədə 11 saatlıq danışıqlar o deməkdir ki, dialoq üçün predmet var, masa üzərində ssenari mövcuddur: "Qarabağ konflikti ilə bağlı danışıqlar prosesində artıq dəyişiklik var. Əminəm ki, müzakirə olunan sənəd layihəsi mövcuddur. Bununla bağlı tərəflər heç nə açıqlamır və məxfilik prinsipinə əməl edirlər. Tərəflər arasında sərt diskussiyalar gedir". Onun sözlərinə görə, Azərbaycanın mövqeyi aydındır: "Bakı birmənalı şəkildə ölkənin ərazi bütövlüyünün bərpa olunmağını istəyir və danışıqlar masası arxasında kompromislər axtarır. Tərəflər qeyd edirlər ki, "Madrid prinsipləri" hüquqi sənəd deyil, onlar danışıqlar üçün əsas kimi qəbul edilib. Azərbaycan və Ermənistan işarə edib ki, "Madrid prinsipləri"ndən razı deyillər, amma istənilən halda onlar bundan imtina etmirlər. Tərəflər danışıqları davam etdirsələr, bu o deməkdir ki, "Madrid prinsipləri"nin modernləşdirilib-modernləşdirilməməsindən asılı olamayaraq, onlar işləyir. Lakin real vəziyyət onu da göstərir ki, Nikol Paşinyan yeni oyun təklif edir. Mən bunu ikili standart adlandırıram və düşünürəm ki, Azərbaycan daha davamlı və dəqiq siyasət yürüdür. İrəvanın mövqeyi isə hələ də anlaşılmazdır".

Digər ekspert Vitali Arkov da hesab edir ki, Azərbaycan və Ermənistan rəsmiləri sadəcə görüş xatirinə bir araya gəlmir:"Son vaxtlar Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüşlər daha tez-tez keçirilir və uzun müddət davam edir. Şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsi kimi mürəkkəb bir problemin həllində hər hansı bir formatda, xüsusən də xarici işlər nazirləri səviyyəsində istənilən danışıqlar vacibdir. Lakin yalnız prosesin özü vacib deyil, eyni zamanda nəticə də əldə etmək lazımdır. ATƏT-in Minsk Qrupu həmsədrlərinin və Azərbaycan tərəfinin sülhün bərqərar olmasında və işğal edilmiş torpaqların qaytarılmasında maraqlı olması da sirr deyil. Lakin erməni tərəfinin danışıqlar prosesini yubatmaq üçün bir çox səbəbi mövcuddur". 2020-ci ildə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində gözləntiləri ilə bağlı sualı cavablandıran ekspert son dövrlərdə dəfələrlə Paşinyanın qondarma "Dağlıq Qarabağ Respublikası"nın rəhbərliyini öz nəzarətində olan insanlarla dəyişmək niyyətində olduğunu eşitdiyini qeyd edib: "Məqsəd regionun Azərbaycana tərkibinə qaytarılmasına əngəl olan səbəbi aradan qaldırmaqdır. Bakı üçün bu nikbin versiyadır. Dağlıq Qarabağda Paşinyan indi tamamilə fərqli vəzifələri həll edir. O, siyasi gələcəyini xilas etməyə çalışır, çünki bölgə uzun müddət ölkəni idarə edən və bu gün ən güclü və təhlükəli müxalif qüvvə olan, erməni siyasətində "Qarabağ klanı" adlandırılan klanın dayağı hesab olunur. Bu klan, hətta liderinin - keçmiş prezident Robert Köçəryanın həbsinə və digər keçmiş prezident Serj Sarkisyanın cinayət təqibi altında olmasına baxmayaraq belə də qalır. İkinci və ən vacib şey. Dağlıq Qarabağın Azərbaycana qaytarılmasına Köçəryan-Sarkisyan komandasının üzvləri qarşı çıxır. Bu, uzun illər davam edən təbliğatın nəticəsidir və yalnız Dağlıq Qarabağdakı rəhbər işçiləri əvəzləməklə vəziyyəti dəyişmək mümkün deyil. Buna baxmayaraq, bu gün həqiqətən də Azərbaycanın işğal olunmuş yeddi rayonunun Bakıya qaytarılması, Ermənistanın blokadasının zəifləməsi və iki ölkənin əhalisini dinc qonşuluğa yaxınlaşdıran layihənin intensivləşməsi barədə həqiqətən danışa bilərik". Nikol Paşinyanın Dağlıq Qarabağın danışıqlarda üçüncü tərəf kimi iştirakı ilə bağlı fikirlərinə münasibət bildirən Vitali Arkov qeyd edib ki, bu, yalnız bölgəni tərk etməyə məcbur edilmiş azərbaycanlıların qayıtmasından sonra mümkün ola bilər. Ekspert sülhün bərqərar olmasında Rusiyanın indi xüsusi maraqlı tərəf olduğunu və mövqeyini Bakı ilə daha çox yaxınlaşdırdığını da vurğulayır.

Əslində, rəsmi məlumatlar da ekspertin dediklərini istisna etmir. Rəsmi Bakı da ümid edir ki, Rusiya indiyə qədər Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində göstərdiyi səyləri daha da artıracaq. Çünki Rusiyanın Ermənistan üzərində təsiri hələ də həddən artıq çoxdur. Moskva, faktiki olaraq, Ermənistanın bütün siyasi, iqtisadi, sosial, hərbi, təhlükəsizlik, geosiyasi məsələlərində mühüm təsir qüvvələrinə malikdir və bu ölkə Ermənistana təsirli təzyiq göstərməklə bu ölkəni konstruktiv istiqamətə yönəldə bilər. Elə bu fonda Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenkonun RİA "Novosti" agentliyinə müsahibəsində səsləndirdiyi fikirlər diqqətdən yayınmır. Nazir müavini qeyd edir ki, Rusiya hər zaman Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında aktiv vasitəçi mövqeyi tutub. Onun sözlərinə görə, həlli gecikmiş münaqişənin nizamlanmasında tərəflərə köməklik göstərmək Rusiyanın xarici siyasət prioritetləri sırasındadır:

"Qarabağ mövzusu Rusiya prezidentinin, xarici işlər nazirinin diqqət mərkəzində qalır. Bu hal davam edən vasitəçilik fəaliyyətinə xüsusi əhəmiyyət verir və bu fəaliyyətin nəticələrinə artan diqqəti müəyyənləşdirir. Rusiyanın birbaşa köməyi ilə imzalanan sənədlər arasında hələ də atəşkəs üçün əsas olan 1994-cü il Atəşkəs Sazişi var. Ölkəmizin vasitəçilik səylərindəki vacib mərhələ 2008-ci ildə Moskva Bəyannaməsinin qəbul edilməsi oldu, hansı ki, bu sənəddə Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla həllindən bəhs olunur. Bu, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair Azərbaycan və Ermənistan liderləri tərəfindən imzalanan ilk və bu günə qədər yeganə sənəddir. Bildiyiniz kimi, Rusiya Azərbaycan və Ermənistanın Baş Qərargah rəislərini Moskvaya dəvət etməklə, 2016-cı ildə genişmiqyaslı hərbi əməliyyatların başa çatmasında da həlledici rol oynadı". Rudenko ölkəsinin fransalı və amerikalı tərəfdaşları ilə sıx təmasda vasitəçilik missiyasını həyata keçirdiyini də xatırladıb: "Ötən ilin aprel ayında Moskvada Sergey Lavrov tərəfindən həmsədrlərin iştirakı ilə Azərbaycan və Ermənistan XİN başçılarının görüşü təşkil olunub. Görüşdə keçən il Vyanada İlham Əliyev və Nikol Paşinyan arasında əldə edilmiş razılaşmaların işlənib hazırlanması zamanı danışıqlar prosesinin yenidən başlamasına şərait yaradan konkret təkliflər ortaya qoyulub. Bunlar arasında münaqişə zonasında vəziyyətin daha da sabitləşməsi, tərəflərin ərazisində saxlanılan şəxslərin taleyinin asanlaşdırılması tədbirləri var. Media nümayəndələrinin qarşılıqlı səfərləri barədə razılığa gəlinib, nizamlanmanın bəzi əsas məsələlərinə baxılıb. Bu təkliflərin bir qismi həyata keçirilib. Sərhəddə və təmas xəttində vəziyyət nisbətən sakit olaraq qalır. İrəvanla Bakı arasında rabitə xətti var. Jurnalistlərin qarşılıqlı səfərləri həyata keçirilib. Əsirlikdə olan Zaven Karapetyan və Elvin İbrahimov geri qaytarılıb. Digər məhkumlarla bağlı iş davam edir. Beynəlxalq Qırmızı Xaç Komitəsi bu prosesə cəlb olunub. İnanırıq ki, bütün bunlar tərəflərin əhalini sülhə hazırlamağa yönəlmiş konkret addımlar atmaq niyyətindən xəbər verir. Bu, xüsusilə Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Cenevrədəki son iclasında da müzakirə edilib. Tərəflər güzəşt həlli axtarışlarını davam etdirməyə hazır olduqlarını bəyan edirlər. Bu münasibəti dəstəkləyirik. İşin davam etməsi üçün əsas var. Əsas siyasi iradə nümayiş etdirməkdir".

Ekspertlər də hesab edir ki, Moskvanın prosesə fəal müdaxiləsi mühüm yeniliklərə gətirib çıxara bilər. Elə Cenevrə görüşündə də Rusiyanın fəallığı barədə müəyyən məlumatlar səslənir.

Digər tərəfdən ekspertlər bildirir ki, indiyə qədər Qarabağ konfliktinin donmuş vəziyyətdə qalması Rusiyaya sərf edirdi. Yəni Rusiya üçün bu status-kvo həm Ermənistanı, həm də Azərbaycanı nəzarətdə saxlamağa imkan verirdi. İndi isə situasiya dəyişib. O mənada ki, Ermənistanda hakimiyyətdə Rusiyaya münasib olmayan qüvvələrdir. Hətta indi Ermənistanda ölkənin NATO-ya qoşulmasından danışılır. Gürcüstanın ardınca Ermənistanın belə bir addım atması Kreml üçün qətiyyən qəbuledilməzdir. Məhz belə olan halda, Dağlıq Qarabağla bağlı mövcud status-kvo Moskvanın maraqlarına daha əvvəlki kimi cavab vermir. Uzun illər vəziyyətin belə qalması Rusiyanın Cənubi Qafqazla bağlı maraqlarına bundan sonra mənfi təsir edəcək. Ona görə də Rusiya bölgədə maraqlarını bundan sonra da qorumaq istəyirsə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı real addımlar atmalı olduğunu yaxşı bilir. Bu onun regionda mövqelərinin qorunması baxımından da vacibdir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanlıların öz yurdlarından ermənilər tərəfindən zorakı deportasiya tarixləri...

**Dünyada Azərbaycan türkləri kimi çətin ikinci bir xalq tapıla bilər ki, öz tarixi ata-baba yurdlarından deportasiya edilələr, özü də torpağında yaşamaq üçün yer verdiyi soysuz, yurdsuz bir toplum tərəfindən. O toplum tərəfindən ki, XX yüzilliyin əvvəllərinə qədər Qafqazda onun heç bir dövləti olmayıb. Söhbət torpaqlarımıza sahiblənən ermənilərdən və onların xalqımıza yaşatdığı faciələrdən, silsilə deportasiya aktlarından gedir.**

## I yazı

Azərbaycanlıların tarixi torpaqları olan Qərbi Azərbaycandan ermənilər tərəfindən deportasiya edilməsində heç şübhəsiz ki, onları Azərbaycan torpaqlarında məskunlaşdıran, bunun üçün bütün vasitələrə əl atan Çar Rusiyasının və digər iri dövlətlərin rolu danılmazdır. Azərbaycan torpaqlarında erməni dövləti qurulmasına rəvac verən, dəstək göstərən dövlətlər bununla Azərbaycan xalqına qarşı böyük tarixi ədalətsizlik ediblər. Nəticədə azərbaycanlılar öz ata-baba yurdlarından deportasiya ediliblər. Xalqımızın tarixinin faciəli səhifələrindən olan deportasiya aktını törədən ermənilər tarix qarşısında cavab vermək əvəzinə, torpaqlarımıza qarşı sonu bilinməz iddialar meydana qoymaqdadırlar.

Tarixçilər qeyd edirlər ki, azərbaycanlıların indiki Ermənistandan (Qərbi Azərbaycandan) deportasiyası və köçürülməsi hələ XVIII əsrdən başlanıb. Qərbi Azərbaycandan azərbaycanlıların, ümumiyyətlə, müsəlmanların deportasiyası üç mərhələdə aparılıb. Tarixçilərin verdiyi məlumata görə, birinci mərhələ 1905-1920-ci, ikinci mərhələ 1948-1953-ci, üçüncü mərhələ 1988-1992-ci illəri əhatə edir.

Tarixçilərin bildirdiyinə görə, bu proseslər zamanı ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, 30 minə yaxın evi dağıdıb və yandırıb, qoca, uşaq və qadınların da daxil olduğu 140 min insanı vəhşicəsinə qətlə yetirib, 750 mindən artıq azərbaycanlı Qərbi Azərbaycandan didərgin salınıb. Sonuncu deportasiya zamanı - 1988-ci ildə isə 220 mindən artıq azərbaycanlı erməni vəhşiliyinə tab gətirə bilmədiyindən, doğma yurd-yuvalarını tərk edib. Bundan sonra ermənilər Qərbi Azərbaycandan azərbaycanlıların izini itirmək məqsədilə buradakı qəbiristanlıqları, tarixi-mədəni abidələri, dini məbədləri, məktəb, xəstəxana və digər binaları darmadağın ediblər. Təkcə 1988-ci ildən sonra Qərbi Azərbaycanda ermənilər azərbaycanlılara məxsus 2000-dən artıq qəbiristanlıq dağıdıb. Ermənilər tarixən azərbaycanlılara, türklərə qənim kəsildikləri halda, bu faktlar gizlədilib, dünya ictimaiyyəti isə bu məsələlərə diqqətsizlik göstərib.

Azərbaycanlıların Ermənistandan kütləvi deportasiyasına diqqət çəkən mütəxəssislər bildirirlər ki, bu akt əsasən 1948-1953-cü illərdə Stalinin göstərişi ilə həyata keçirilib. Tarixçilər deyirlər ki, əgər Krım tatarlarını, çeçenləri və digər xalqları almanlarla əməkdaşlığa görə cəzalandırıb köçürmüşdülərsə, azərbaycanlıların köçürülməsinə yeganə səbəb onların azərbaycanlı olması idi. Digər repressiyaya məruz qalan xalqlar yaşadıqları bütün torpaqlardan deportasiya olunmuşdularsa, azərbaycanlılar yalnız Ermənistandan köçürüldülər ki, məqsəd Ermənistanın "təmizlənməsi" idi. Ermənistanda bütün toponimlərin də təmizlənməsi qərara alınmışdı. SSRİ Nazirlər Sovetinin çoxlu saylda qərarı ilə 2 mindən çox ad dəyişdirildi. Lakin Ermənistanın tam təmizlənməsinə Sovet dövrü bəs etmədi. Ermənistanın məsul işçilərindən biri olan Manuk Vardanyanın sözlərinə görə, ölkədəki bütün türk mənşəli sözlərin dəyişdirilməsi Sovet dövründən sonra da davam etdirilib. Erməni şovinistlərinin bunda məqsədi öz halal torpaqlarımızdan bizim izlərimizi silmək olub. Bundan əlavə, erməni şovinistləri burada həm də azərbaycanlı, erməni və kürd əhalisinin sayının dəyişdirilməsi məqsədini də güdüblər.

Tarixçilər vurğulayırlar ki, əsrlər boyu Ermənistanın şərqində yaşamış azərbaycanlılar iyirminci əsrdə sosial sahədə sıxışdırılaraq diskriminasiya olunublar. Məlum olduğu kimi, 1918-1920-ci illərdə on minlərlə azərbaycanlı Zəngəzurdan qovulub və keçən əsrin 40-cı illərində erməni gəlmələri üçün yer əldə etmək üçün daha on minlərlə azərbaycanlı Azərbaycana deportasiya olunub. O da məlumdur ki, 1988-1989-cu illərdə son etnik təmizləmə vaxtı isə yerdə qalanlar qovuldular.

Tarixçi Həyat Məhərrəmova qeyd edir ki, XIX yüzillikdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi azərbaycanlıların deportasiyası ilə nəticələnib. "Bu dövrdən müxtəlif adlar altında azərbaycanlıların öz tarixi torpaqlarından sıxışdırılıb çıxarılması prosesinə başlanıb və nəticədə yüzminlərlə soydaşımız öz ata yurdundan didərgin salınıb. Burada əsas məqsəd etnik türkləri, müsəlmanları öz yurdlarından qovmaq, Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq idi. Məlumdur ki, Azərbaycan türklərinin iyirminci əsrdə ardıcıl olaraq köçürülməsi bu siyasətə, ideologiyaya xidmət edib. Sirr deyil ki, XX əsrin əvvəllərində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıblar, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib. 1918-1920-ci illərdə yüz minlərlə azərbaycanlı qətlə yetirilib, öz yurdlarını tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrilib, yüzlərlə Azərbaycan kəndi yer üzündən silinib".

Tarixçi xatırladır ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Sovet hakimiyyətinin köməyilə Ermənistan SSR-in ərazisinə daxil etməyə nail olublar.

H.Məhərrəmovanın vurğuladığına görə, sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atıblar. "Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olublar. SSRİ Nazirlər Sovetinin bu qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktları olub. Bu qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki doğma torpaqlarından kütləvi surətdə və zorakılıqla sürgün olunub. Əsrin əvvəllərində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq qovulub. Azərbaycanlıların hüquqları kobudcasına pozulub, onlara qarşı sərt repressiyalar həyata keçirilib".

H.Məhərrəmova vurğuladı ki, ermənilərin dənizdən-dənizə "Böyük Ermənistan" yaratmaq xülyasına ilham verən dövlətlər bunun uğursuz ideya olduğunun fərqinə varsalar da, kənardan ermənilərə havadarlıq ediblər.

Tarixçinin qeyd etdiyinə görə, müasir tədqiqatlarda göstərilir ki, ermənilər deportasiya planını həyata keçirməzdən əvvəl buna xüsusi hazırlaşıblar. Azərbaycanlılar isə həmin vaxtlarda ermənilərin bu iyrənc siyasətinin arxasında duran məqsədləri dərk etməyiblər. Çar Rusiyası tərəfindən İrəvana köçürülən ermənilər əvvəlcə məskunlaşdıqları kənd, rayon, qəsəbə, dağ-dərə, mahal və digər yerlərin adlarını dəyişərək erməniləşdiriblər. Bu ərazidə olan azərbaycanlı adlarını öz adları ilə əvəzləyiblər. O vaxt Qərbi Azərbaycanın - indiki Ermənistanın 34 rayonunun adı dəyişdirilib.

O vurğuladı ki, hazırda Qəmərli-Artaşat, Arpaçay-Axuryan, Kəvər-Kamo, Basarkeçər-Vardenis, Allahverdi-Tumanyan, Aşağı Qaranlıq-Martuni, Qarakilsə-Sisian, Hamamlı-Spitak kimi dəyişdirilərək erməniləşdirilib.

Bundan sonra özlərinə şərait yaradan ermənilər azərbaycanlıları köçürməyə, təzyiqlər göstərməyə başlayıblar. Azərbaycan tərəfindən hər il ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım, vəhşiliklər barədə Birləşmiş Millətlər Təşkilatına, UNESCO-ya, Avropa Şurası, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına və dünya ictimaiyyətinə müraciətlər göndərilsə də, nəticə hələ ki, yoxdur.

Fransa, Rumıniya, Azərbaycan, Türkiyə, Ukrayna, İtaliya parlamentariləri tərəfindən imzalanmış Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qərarında göstərilir ki, "Böyük Ermənistan yaradılmasına yönəldilmiş azərbaycanlı əhalinin məcburi köçürülməsi yüz ildən artıq bir dövrü əhatə edir"

O qeyd etdi ki, Azərbaycan türklərinin ermənilər tərəfindən deportasiya edilməsi faktına siyasi qiymət Heydər Əliyev tərəfindən verilib. "Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyev 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman imzalayıb. Həmin Fərmanda deyilir: "Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən, qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır".

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Rusiyanın mövcud Ermənistan hakimiyyətinə simpatiyasının olmadığı heç kimə sirr deyil. Elə bu səbəbdən Kremlin Nikol Paşinyan iqtidarına qarşı hərəkətə keçəcəyinə dair Ermənistanda baş tutan məlum "məxməri inqilab"dan sonra müxtəlif proqnozlar verilir.**

# Paşinyana qarşı yeni partiya - keçmiş DTX sədrinin Rusiya himayəsində olduğu deyilir

Əvvəllər hesab edilirdi ki, Moskva Paşinyana qarşı "Qarabağ klanı"ndan istifadə edəcək. Amma bu klanın erməni əhalisi arasında nüfuzunun olmaması və mövqeyini əhəmiyyətli dərəcədə itirməsi Rusiyanı başqa variantlardan istifadəyə sövq edir. Söhbət Paşinyana qarşı yeni siyasi qüvvənin formalaşdırılması və onun vasitəsilə Ermənistanda yeni hakimiyyət dəyişiklyinə rəvac verilməsindən gedir.

Real vəziyyətin təhlili göstərir ki, Moskva Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyana stavka edir. Vəzifəsindən ayrılan Vanetsyan artıq aktiv siyasətə atılır. O bu məqsədlə partiya yaratdığını bəyan edib. Özü də onun yeni partiyası sağ mərkəzçi olacaq. Vanetsyan "İnterfaks"a müsahibəsində bu xüsusda deyib:"Yeni siyasi qüvvə sağ mərkəzçi olacaq. Hazırda tərəfdarlarımız və mümkün tərəfdaşlarımızla geniş konsultasiya prosesi aparılır. Bütün mümkün müzakirələrdən sonra biz gələcək fəaliyyətlə bağlı konkret proqram və yol xəritəsi təqdim edəcəyik". Vanetsyan hazırkı hökumətin "məxməri inqilab"ın hədəflərindən uzaqlaşdığını bildirib. Paşinyanın Ermənistana ədalət, həyat səviyyəsinin artırılması, təhsildə, səhiyyədə, sosial sferada xidmətin yüksəldilməsi vədini verdiyini, amma bunu reallaşdırmadığını vurğulayan Vanetsyan, həmçinin, Rusiyanın Ermənistanın strateji müttəfiqi olduğunu bildirib. Eks-kəşfiyyat şefi bundan sonra da İrəvanla Moskvanın strateji münasibətlərini saxlamalı olduğunu deyib:"Bu gün Ermənistanda hakimiyyəti müxalifətdə olarkən antirusiya mövqeyi ilə çıxış edənlər tutub. Nikol Paşinyanın özü parlamentdə Ermənistanın Avrasiya İttifaqından çıxması təşəbbüsünü irəli sürüb. Onlar Avrasiya İttifaqının Ermənistana təhdid olduğunu bəyan edirdilər". Baş verənlərlə bağlı Ermənistanın "1in.am" saytı yazır:"Artur Vanesyanın partiya yaratdığını bəyan etməsi, ən azı, formal mənada hakimiyyətə iddia etmək deməkdir. Vanesyan bəyan edib ki, ideoloji nöqteyi-nəzərdən sağ mərkəzçi qüvvə formalaşdırır. Əlbəttə, hazırda Ermənistanın siyasi meydanında ideyalılıq "elektromobil" kimi bir şeydir, yəni o mövcuddur, lakin praktiki olaraq qayda deyil, daha çox istisna təşkil edir. Bu mənada, MTX-nin sabiq rəisinin partiyasının siyasi istiqamətinin Rusiyayönümlü olacağını demək daha əsaslı olacaq. Onun Çeçenistanın rəhbəri Kadırovla birgə Ermənistan məsələsilə bağlı "Ermənistan üçün proqramlar" təşəbbüsü ilə çıxış etməsi haqqında verdiyi bəyanat da bunu təsdiqləyir. O, hələlik hansı proqramlardan bəhs edildiyi haqqında detallı məlumat verməyib. Sabiq MTX rəisinin partiyası, faktiki, inqilabdan sonra yaradılmış, ortaya yeni siyasi durumda rol oynamağa iddia qoymuş növbəti struktur olacaq.

Bununla əlaqədar, sabiq MTX rəisinin siyasətə gəlməsinin, şübhəsiz, arzuolunmaz olduğu haqqında çoxlu söhbətlər gedir. Belə ki, o, öz əvvəlki xidməti vəzifəsinə görə, gizli informasiyalara malikdir və onlardan siyasi rəqiblərinə qarşı istifadə edə bilər. Digər tərəfdən, burada məsələyə, əlbəttə, ən azı, o aspektdə bir şərtlə yanaşmaq lazımdır ki, siyasi meydanda hər hansı bir gizli informasiya nöqteyi-nəzərincə həssas olan qüvvələr varsa, artıq sabiq MTX rəisinin siyasət daxilində və ya xaricində olması ciddi əhəmiyyət kəsb etmir.

Nəhayət, təhlükəsizlik baxımından belə açığın olması bütün sahə və meydanlar üçün də həssaslıq yaradır. Bu səbəblə, inqilabın məqsədlərindən biri də o olmalıdır ki, bölgəyə həssaslığı, zəif yerləri haqqında nə sabiq, nə də indiki MTX rəisində, ümumiyyətlə, heç kimdə informasiya olmayan adamlar girsin. Onların zəif yerləri yalnız öz ideya və proqramları ola bilər. Mövcud şəraitdə məsələ ondan ibarətdir ki, yaxınlaşan siyasi proseslər çərçivəsində Ermənistanda siyasi qüvvələr nisbəti necə formalaşacaq və yeni seçki prosesi öncəsi qüvvələr nisbətinin perspektivi necə olacaq.

Sabah durumun necə olacağı, əlbəttə, başqa məsələdir. Ancaq bu sabahın nə zaman başlayacağı, parlament seçkilərinin nə zaman keçiriləcəyi, Ermənistan vətəndaşlarının hansı qüvvələr arasında seçim edəcəyi, hazırkı iqtidara qarşı hansı qüvvələrin çıxış edəcəyi maraqlıdır. Bu mühüm məsələnin ictimai müzakirəsinə növbə gələcəkmi? Yeni siyasi reallığın rəqabət aparan əsas özəyi necə olacaq, rəqabət nəyin ətrafında gedəcək?



**Yeni ilə köhnə, indiki ilə keçmiş arasında gedən, əbədi diskurs kimi görünən rəqabət davam edəcəkmi? Artur Vanetsyanın siyasətə gəlməsinin nəticələrini, qoy ictimaiyyət deyil, özü düşünsün. Və belə yanaşma yalnız ona münasibətdə deyil, siyasətə gələn istənilən şəxsə münasibətdə nümayiş etdirilməlidir". Bütün bunlar Ermənistanda siyasi vəziyyətin dəyişmək üzrə olduğunu göstərir. Artur Vanetsyanın isə bu fonda "Qarabağ klanı" ilə də birləşmək cəhdləri müşahidə olunur. Nikol Paşinyanın komandasının müəyyən üzvləri ilə də Vanetsyanın təmasları Paşinyanı ciddi təşvişə salıb.**

***Nahid SALAYEV***

# İdlibdə açıq Türkiyə-Suriya müharibəsi yetişir - İran və Rusiya da müdaxiləyə hazırlaşır

## *Yaxın Şərqdə qardaş ölkənin iştirakı ilə qorxunc qarşıdurma başlanır*

**Yaxın Şərqdə cərəyan edən hadisələr dünyanın diqqətini yenidən bura yönəldib. Belə görünür ki, qardaş Türkiyə və Suriya artıq yaxın tezlikdə genişmiqyaslı hərbi əməliyyatlara start verəcək. İndilikdə baş verən hadisələr də artıq tərəflərin savaşa start verdiyini göstərir. Belə görünür ki, bu savaş istənilən vaxt daha dəhşətli xarakter ala bilər.**

Həllik isə tərəflər bir-birinə qarşı müxtəlif ölçülü hücum əməliyyatları həyata keçirir. Qeyd edək ki, Suriya qüvvələrinin İdlibdə yerləşən Türkiyə ordusuna məxsus müşahidə məntəqələrini atəşə tutması nəticəsində ümumilikdə 14 hərbçi həlak olub. Cavab hücumları nəticəsində ümumilikdə 250-dən çox suriyalı hərbçi zərərsizləşdirilib. Türkiyənin Müdafiə Nazirliyi bəyan edir ki, əməliyyatlar Suriya qüvvələrinin Türkiyə ordusunun mövqelərinə endirdiyi top atışlarına cavab olaraq təşkil edilib. Bildirilib ki, hücum zamanı Suriya ordusuna məxsus 2 tank, 1 ağır silah və 1 silah anbarı sıradan çıxıb. 1 tank isə ələ keçirilib. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd edir ki, Suriya ordusunun hücumu nəticəsində İdlibdə həlak olan türkiyəli hərbçilərin qisası alınır və alınacaq. Ərdoğan Əsəd rejiminin artıqlaması ilə cəzalandırılacağını bildirib:"Rejim ciddi mənada İdlibdə artıqlaması ilə cəzasını aldı. Amma kifayət deyil. Davamı gələcək. Bizim "Mehmet"imizə hücum etdikcə, bədəlini çox ağır ödəyəcəklər. Fevral ayının sonuna qədər rejimi müşahidə məntəqələrimizdən uzaqlaşdırmaqda qətiyyətliyik. Quruda və havada heç bir yolaverməyə meydan verмədən bunu edəcəyik. Onların məqsədi meydanı tamamilə boşaltmaqdır. Heç kimin təxribatına göz yummayacağıq. Rejim ünsürlərini hər yerdə vuracağıq". Türkiyənin Suriya ordusuna vurduğu son ağır zərbələrdən sonra Suriya prezidenti Bəşər Əsəd də mətbuata açıqlama verib. Əsəd Türkiyəni ölkəsinin ərazilərini işğal etməkdə ittiham edib:"Türkiyə öz sərhədlərinin yaxınlığındakı terror təhdidlərini bəhanə edərək ölkəmizi işğal edir. İndi də İdlib və Hələb ətrafına xeyli hərbi texnika və canlı qüvvə yığıb. Biz bunu cavabsız qoya bilmərik. Türkiyənin İdlibə həmlələrinə sakit yanaşmayacağıq. Ordumuz buna hücumla cavab verəcək".

Son məlumata görə, həm Türkiyə, həm də Suriya İdlib ətrafına böyük sayda qüvvə cəmləyir. Bu isə tərəflərin istənilən an qanlı savaşa başlamasını istisna etmir. Baş verənlərlə bağlı "Əl-Monitor" dərgisi yazır ki, prosesə NATO və Rusiyanın, eləcə də İranın qoşulması gözlənir. Bu isə artıq bölgədə genişmiqyaslı savaşın çıxması deməkdir: "Rusiya və Suriya qırıcı təyyarələrinin hava dəstəyi ilə Bəşər Əsədə sadiq qüvvələr keçən həftə rejimin nəzarətinə keçən strateji Saraqib şəhərindən İdlibin mərkəzinə doğru irəliləyişi davam etdirir. İran tərəfdarı hərbçilər isə Hələbin qərbindən vilayətə doğru irəliləyirlər. Türkiyə də, öz növbəsində, məkanda hərbi gücünü artırır. Əraziyə 100-dən çox hərbi konvoy göndərilib. İdlibin müdafiəsini cənub və şərq cəbhələrindən gücləndirmək üçün bu, Türkiyənin 2011-ci ildən bəri bölgədəki ən böyük hərbi mövcudluğuna işarədir. Hazırda bölgədəki türk əsgərlərinin sayı təxminən 9 minə çatıb. Suriya rejimi tərəfindən mühasirəyə alınan türk müşahidə postlarının sayı da Tell Tuqan, əl-Ays və Saraqibin süqutu ilə yeddiyə çatıb. Türkiyə 2018-ci ildə Ankara və Moskva arasında deeskalasiya sazişi çərçivəsində İdlibdə və ətrafında 12 hərbi post qurmuşdu. Bu qədər ölümcül qarşıdurmalara baxmayaraq, Türkiyə niyə ərazidə qoşun saxlamaqda israr edir?

Ankaranın strategiyası sadədir: Türkiyə İdlibdə və ətrafında hərbi iştirakını Suriya rejiminin təcavüzünə qarşı Rusiyanı hərəkətə keçirməyə məcbur etmək üçün məcburi diplomatiya olaraq artırır. Türkiyə İdlib probleminin sonda sərt danışıqlar yolu ilə həll olunacağına əmindir. Beləliklə, Suriyanın digər bölgələrində maraqlarını qorumaq üçün Ankara hava məkanına nəzarət etmədiyi bir bölgədə əsgərlərini artıraraq mövqeyini gücləndirir. Türkiyə risqli strategiyası ilə iki məqsədə çatmağı hədəfləyir. Birincisi, Moskvanı İdlibdə barışıq üçün yeni danışıqlar masasına oturtmaq. İkincisi, masada Rusiyadan Suriya rejiminin Türkiyənin Afrin bölgəsindəki hərbi varlığını, həmçinin Cerablus, əl-Ray və əl-Babı qorumasına icazə təminatı almaq.

Türkiyə üçün kabus ssenarisi - 2017-ci ildə "Fərat Qalxanı" əməliyyatı və 2018-ci ildə "Zeytun Budağı" əməliyyatı ilə nəzarət altına alınan şimal bölgələrini itirməkdir. Suriya rejimi İdlibə nəzarəti təmin etdikdən sonra bu bölgələrə keçə bilər. Beləliklə, Ankaranın Rusiyanı atəşkəsə dair danışıqlar masasına oturmağa razı salmaq üçün hərbi varlığını artırmaqdan başqa yolu qalmır. Türkiyə ilə Rusiya arasında gərgin keçən həftədə, fevralın 1-də Türkiyənin dəstəklədiyi "Azad Suriya Ordusu"nun nəzarətində olan İdlibin şimalında 4 Rusiya əməliyyatçısı öldürülüb. Rusiya nümayəndə heyəti fevralın 8-də deeskalasiya danışıqları üçün Ankaraya gəlib, ancaq Suriyanın şimal-qərbindəki Taftanaz şəhərində türk mövqeyinə hücum atəşkəs ümidlərini öləziləşdirib. Qeyd edək ki, bu görüşlərdə Türkiyə hava və quru qüvvələrindən dörd generalın olması Türkiyənin Rusiya ilə hərbi koordinasiyaya verdiyi yüksək önəmdən xəbər verir. Fevralın 8-də keçirilən ilk danışıqlarda Türkiyə tərəfi, Suriyanın rejim qüvvələri fevral ayının sonuna qədər İdlibdəki deeskalasiya zonasından çəkilməkdən imtina etdiyi təqdirdə, əks-həmlə həyata keçirəcəyini bildirib.

Ankara Əsəd qüvvələrinin İdlibin mərkəzinə çatmasından əvvəl siyasi prosesi sürətləndirmə məqsədilə Rusiya, İran və Türkiyə arasında mümkün yeni bir sammit üçün əsaslar qurur. Türkiyə prezidentinin mətbuat katibi İbrahim Kalın Qazaxıstan paytaxtında 3 il əvvəl başlanmış Suriya danışıqlarına toxunaraq deyib: "Mart ayında Astana danışıqlarının yeni mərhələsi keçirilə bilər". Prezident Vladimir Putinin Türkiyənin məcburi diplomatiyasına necə təpki verəcəyi hələ məlum deyil. Putinin türk vəzifədaşı ilə təkbətək görüşə hazır olub-olmaması da cavabsız sualdır, çünki Rusiya lideri yanvarın 23-də Moskvada Türkiyə və Suriya kəşfiyyatçıları arasında görüşdən sonra da Ankara-Dəməşq yaxınlaşmasını təmin edə bilməyib.




Ərdoğan və Putin görüşsə, yəqin ki, qoşunlarını strateji M4 və M5 magistral yollarının cənubundan çəkmə qarşılığında Türkiyə Suriyanın şimalındakı "Fərat Qalxanı" bölgəsi və Afrin üzərində nəzarəti davam etdirməsini tələb edəcək. Ankara İdlibin mərkəzini Suriya müxalifətinin nəzarətində saxlamaq yollarını da axtarır, halbuki, Əsəd qüvvələri hədəfdən cəmi 10 kilometr məsafədədir, 2012-ci ildən bu yana ən yaxın məsafədə. Danışıqlar masasının qurulması çətindir. Dəməşq hədəfinə çatana qədər Moskva onun üçün vaxt udmağa çalışacaq". Belə bir vaxtda Türkiyənin NATO-ya müraciət etməsi də diqqətdən yayınmır. Məsələyə NATO müdaxilə etsə, Rusiya və İran daha aktiv şəkildə Əsədə yardım edəcək. Elə bu da Yaxın Şərqdə daha təhlükəli bir savaşa rəvac verir.

BMT-nin Humanitar İşlərin Əlaqələndirilməsi Departamenti isə bildirir ki, silahlı qarşıdurma davam edərsə, İdlib qəbiristanlığa çevrilə bilər:"Ötən ilin dekabr ayından bəri, əsasən qadın və uşaq olmaqla, 700 min nəfər İdlibdən köç edib. Bu, Suriyanın İdlib şəhərində yaşanmış ən böyük köç sayılır. Hazırda ən böyük köçlə qarşı-qarşıyayıq. İdlibin qəbiristanlığa çevrilməməsi üçün qarşıdurmalar dərhal dayandırılmalıdır".

***Tahir TAĞIYEV***

# Ali Attestasiya Komissiyasından daha bir narazılıq - "övladım dövlət qulluqçusu olduğu üçün elmi təsdiqini ala bilmir"

## *Tahir İmanov: ”Qərarda dövlət qulluğunda çalışan şəxsin elmi dərəcə alması üçün hər hansı bir qadağa yoxdur”*

**Prezident yanında Ali Attestasiya Komissiyasının (AAK) keçən ilin dekabr ayının 13-də öz əsasnaməsinə etdiyi dəyişiklik elmi işinin müdafiəsini gözləyən 50-dən artıq doktorant və dissertantın narazılığına səbəb olub. Bildiyiniz kimi, iddiaçılar AAK-ın məlum qərarı ilə razılaşmırlar.**

Qeyd edək ki, AAK-ın məlum qərarına görə, fəlsəfə doktoru elmi adı almaq üçün müzakirədən keçmiş dissertasiyalar yenidən ilkin müzakirəyə qaytarılmalı, seminardan keçənlər isə yenidən seminarda iştirak etməlidirlər.

Narazılar arasında elə insanlar da var ki, onlar elmi iş müdafiə edib fəlsəfə doktoru adı alsalar da, bunu təsdiq edən diplomu AAK-dan ala bilmirlər.

Nuru İmanov 2018-ci ildə müdafiə etməsinə baxmayaraq, AAK-ın yeni sədri ona diplomu vermək istəmir, səbəb kimi isə N.İmanovun dövlət qulluğunda işləməsini göstərir (?).

Redaksiyamıza AzTU-nun 4 saylı tələbə yataqxanasında məskunlaşmış zəngilanlı məcburi məcburi köçkün İmanov Tahir Nuru oğlu tərəfindən məktub daxil olub. N.İmanovun atası T.İmanov oğlunun alimlik diplomunu AAK-dan almasına yardımçı olmağımızı xahiş edir.

"Mən, İmanov Tahir 1993-cü ildən Zəngilandan məcburi köçkün olaraq ailəmlə birgə AzTU-nun 4 saylı tələbə yataqxanasında (Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 1) kommunal şəraitsiz birotaqlı mənzildə məskunlaşmışıq. Özüm Qarabağ müharibəsinin iştirakçısı olmuşam. Hazırda ağır xərçəng xəstəsiyəm. Həyat yoldaşım II qrup əlildir, işləmir. Sizə müraciətim oğlum Nuru İmanovla bağlıdır. 09.10.2019-cu il tarixdə oğlumun elmi işi ilə bağlı Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayevin qəbulunda olmuşuq. Məni qəbul otağına buraxmasalar da, oğlum Famil müəllimin qəbuluna düşüb. Nuru elmi işi ilə bağlı məsələyə nə üçün baxılmadığını soruşduqda Famil müəllim bildirib ki, dövlət qulluğunda çalışdığına görə onun elmi işi ilə bağlı məsələyə baxılmayacaq. Buna əsas olaraq hər hansı bir şəxsin subyektiv qərarını göstərib. Onun dediyinə görə, elmi işi ilə bağlı məsələyə baxılması üçün Nuru aparıcı məsləhətçi olaraq ya işdən ayrılmalı, ya da pensiya yaşını gözləməlidir. Bəs bu adam harada işləməlidir? Çox təəssüf ki, bu kimi məqamları düşünən yoxdur... Bunları heç soruşan da olmayıb. Nuru buna cavab olaraq fikrini bildirib ki, həmin qərarla çoxdan tanışdır və qərarda dövlət qulluğunda çalışan şəxsin elmi dərəcə alması üçün hər hansı bir qadağa yoxdur. Həmin qərar AAK-ın keçmiş sədri akademik A. Mehdiyevə aiddir. Qərarda göstərilir ki, dövlət qulluğundakı gərgin iş rejimi şəraitində elmi fəaliyyətlə məşğul olmağın mümkünsüzlüyü nəzərə alınaraq, dövlət qulluğunda çalışan şəxslərin elmi dərəcə almaq üçün dissertasiya işinin müdafiəsinə buraxılmaları məqsədəuyğun sayılmır. Göründüyü kimi, "məqsədəuyğun" sözü hər hansı bir qadağanı ehtiva etmir. Bir şeyi başa düşə bilmirəm, xalqa, dövlətə və dövlətçiliyə xidmət edən şəxsə AAK niyə belə əngəllər yaradır? Elmə maraq göstərən bir gəncə "məqsədəuyğun sayılmır" adı ilə belə maneələr yaratmaq kimə, yaxud nəyə lazımdır?!

Bu cür qeyri-obyektiv yanaşma ölkəmizdə gənclər sahəsində aparılan islahatlara tamamilə ziddir. İslahat adı ilə AAK vətəndaşları incidir. Mən özüm bunu qəbul zamanı da müşahidə etdim. Arxasız adam üçün Çin səddini keçmək AAK səddini keçməkdən daha asandır. Arxalı, səlahiyyətli şəxslər üçün AAK-dan diplom almaq su içmək kimi bir şeydir".




*”...məcburi köçkün olaraq oğlumun o cür acınacaqlı şəraitdə, mərhum akademik Vasim Məmmədəliyevin elmi rəhbərliyi altında zəhmətlə ərsəyə gətirdiyi fundamental elmi işi...”*

T.İmanov yazır ki, bir vətəndaş kimi, AAK-ın oğluna münasibətindən narazıdır və bu qurumdan elmi işlə bağlı, yaxud digər aidiyyəti məsələ barədə bir söz soruşmaq üçün bir ay əvvəldən qəbula yazılmaq tələb olunur. Onun qeyd etdiyinə görə, 15.01.2020-cı il tarixdə özü AAK-ın rəhbərliyinin qəbulunda olub: "AAK sədrinə qəbul zamanı dedim ki, "məqsədəuyğun" sözü axı qadağan deyil, bizim kimi sıravi vətəndaşları niyə incidirsiniz, elə bizim kimilərə gələndə məqsədəuyğun olmur? Sədr bütün suallarımı ironiyalı gülüşlə qarşılayıb susurdu... Sonda isə oğluma heç bir kömək etməyəcəyini bildirdi. Mən də bildirdim ki, aidiyyəti qurumlara müntəzəm öz müraciətimi edəcəm, yəqin ki, bu məsələ nə vaxtsa ədalətli həllini tapacaq. Qeyd edim ki, oğlum AMEA-da təhsilini və elmi işini dövlət qulluğuna qəbul olunmazdan əvvəl tamamlayıb. 26 sentyabr 2018-ci ildə elmi işini müdafiə edib və müvafiq sənədləri AAK-a təqdim edib".

"Dövlət qulluğu haqqında" Qanunun 19-cu maddəsindən sitat gətirən şikayətçinin qeyd etdiyinə görə, qanunun sözügedən bəndində açıq-aşkar göstərilir ki, dövlət qulluqçusunun elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi ilə pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq hüququ var. "Deməli, hər hansı bir şəxsin subyektiv qərarına əsasən bu qanunun maddəsi pozulursa, o zaman bizim vətəndaş olaraq hüququmuz pozulur.

**Bundan əlavə, Ali Qanunumuz - Konstitusiyamızın 51-ci maddəsində qeyd edilir ki, hər kəsin yaradıcılıq azadlığı var. Üstəgəl, bizim bu hüququmuz da pozulmuş olur. İstəməzdim ki, məcburi köçkün olaraq oğlumun o cür acınacaqlı şəraitdə, mərhum akademik Vasim Məmmədəliyevin elmi rəhbərliyi altında zəhmətlə ərsəyə gətirdiyi fundamental elmi işi hər hansı bir şəxsin subyektiv qərarının "qurbanı" olsun.**

Hörmətli redaksiya heyəti, sizdən sıravi bir vətəndaş kimi çox xahiş edirəm ki, oğlum Nuru İmanovun elmi işi ilə bağlı məsələni səlahiyyətiniz çərçivəsində işıqlandırasınız. Sizə əvvəlcədən dərin təşəkkürümü bildirirəm" - deyə qeyd edən T.İmanov bu fikirləri 12.02.2020-ci il tarixində redaksiyamıza ünvanladığı məktubda bildirir.

Qarşı tərəf müraciət edərsə, onların da mövqeyini işıqlandıra bilərik.

***İradə SARIYEVA***

**"İgid ölər, adı qalar" deyimi əsrlərdir xalqımızın cəsur, qorxmaz, qəhrəman oğullarına əbədi minnətdarlığı kimi yaşayır. Hər dövrün öz qəhrəmanları var və bu qəhrəmanlar xalqımızın yaddaşında yaşayır, adları nəsildən-nəsilə ötürülərək yaşadılır.**

# Orta məktəb siniflərinə milli qəhrəmanların adlarının verilməsi...

İyirminci yüzilliyin sonlarında ermənilərin torpaqlarımıza təcavüzü nəticəsində ana yurdunu düşməndən xilas etmək, Azərbaycanın ərazi bütövlüyünü qorumaq istəyilə yüzlərlə vətən oğlu silaha sarıldı, son damla qanına qədər döyüşdü, şəhidlik mərtəbəsinə ucaldı, qazi adı qazandı.

Qarabağ savaşında misilsiz qəhrəmanlıq göstərən, şəhidlik və qazilik zirvəsinə yüksələn Azərbaycanın milli qəhrəmanlarının adı tariximizin səhifələrinə yazıldı. Bu gün Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan, canını fəda edən hər bir vətən övladı xalqımız üçün misli olmayan bir dəyərdir. Xalqımızın qəhrəman oğullarını uşaqlara və gənc nəslə tanıtmaq, onların mübarizə yolunu təlqin etmək, şəhidlik irsini təbliğ etmək borcumuzdur. Qəhrəmanını tanımayan gəncliyin vətənpərvərlik tərbiyəsi tam olaraq formalaşa bilməz. Gənclərimizin öz qəhrəmanlarını tanıması ən ümdə məsələlərdən biridir. Qəhrəmanlıq özü bir məktəbdir ki, ondan örnək götürənlər vətənin sabahını qorumaq əzminə yiyələnirlər.

Uzun illərdir şəhidlərimizin xatirələrinin əbədiləşdirilməsi istiqamətində dövlət səviyyəsində böyük işlər görülür, onların adları küçələrə, meydanlara, təhsil ocaqlarına, ayrı-ayrı müəssisələrə verilir, heykəlləri, büstləri ucaldılır, yaşadıqları evlərə xatirə löhvələri vurulur. Əlbəttə, bu amil onların qəhrəmanlıq, şəhidlik irsinin təbliğində mühüm rol oynayır.

Şəhidlərimizin, "Milli Qəhrəman" fəxri adı, "Azərbaycan Bayrağı" ordeni və digər mükafatlarla təltif edilmiş qəhrəmanlarımızın adlarının vaxtilə oxuduqları orta məktəblərə verilməsi artıq bir ənənə halını alıb. Bu müsbət ənənə ölkəmizin hər yerində mövcuddur.

Bu gün daha bir maraqlı ideya irəli sürülüb. Artıq qəhrəmanların adlarının əbədiləşdirilməsinin digər bir variantı da meydana çıxıb. Milli qəhrəmanların adlarının orta məktəb siniflərinə verilməsi ideyası. Orta məktəb siniflərinə milli qəhrəmanların adlarının verilməsi sözsüz ki, gənc nəslin vətənpərvərlik tərbiyəsinin inkişafında mühüm rol oynayacaq. Böyük həyat, vətənpərvərlik məktəbi olan hər bir Milli Qəhrəman xalqımızın, dövlətimizin əbədiyaşar mənəvi sərvətidir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmlinin fikrincə, milli qəhrəmanların adlarının əbədiləşdirilməsi, onların gənc nəslə tanıdılması üçün məktəblərdə nümunəvi siniflər yaradılmalı və həmin siniflərə milli qəhrəmanların adları verilməlidir: "Milli qəhrəmanlarımızı kiçikdən böyüyə kimi hamı tanımalı və onların döyüş yolunu, qəhrəmanlıq salnaməsini bilməli, təbliğ etməlidir. Uşaqların, yeniyetmə və gənclərin milli qəhrəmanları yaxından tanıması çox vacibdir. Bilirik ki, bir çox məktəbə milli qəhrəmanların adları verilib. Amma bəzən o milli qəhrəmanlar lazımi səviyyədə təbliğ olunmur. Bu da bəzi orta məktəb rəhbərlərinin, xüsusən də tarix müəllimlərinin məktəblərdə ideoloji işi düzgün qura bilməməsinin nəticəsidir. Bilirsiniz, vətənpərvərlik yalnız beş-on dənə bu mövzuda şeir əzbərlətməklə təbliğ olunmur, o xüsusi şəkildə təbliğ olunmalıdır. Bəli, bu gün orta məktəblərdə xüsusi nümunəvi siniflər yaradılmalıdır və həmin siniflər milli qəhrəmanların adını daşımalıdır. Bu çox müsbət bir iş olardı. Düşünürəm ki, Təhsil Nazirliyi və əlaqədar qurumlar bu istiqamətdə addımlar atacaqlar. Milli qəhrəmanların adlarını daşıyacaq nümunəvi siniflər yaradılarsa, bu, şagirdlərin vətənpərvərlik hisslərinin formalaşmasında, milli mənlik şüurunun yetişməsində misilsiz rol oynayacaq. Bu həm də milli qəhrəmanlarımızın keçdiyi döyüş yolunun və şanlı şəhidlik irsinin təbliğində böyük effektə səbəb olacaq".



***Qiymət Məhərrəmli:** "Milli qəhrəmanların adlarını daşıyacaq nümunəvi siniflər yaradılarsa, bu, şagirdlərin vətənpərvərlik hisslərinin formalaşmasında, milli mənlik şüurunun yetişməsində misilsiz rol oynayacaq"*

***Faiq Ələkbərli:** "Siniflərə milli qəhrəmanların adlarının verilməsi..."*

Q.Məhərrəmli hesab edir ki, milli qəhrəmanların adını daşıyan siniflərdə təhsil alan şagirdlər bütün gücləri səfərbər edib qəhrəmanın adına layiq olmağa çalışacaqlar. O, həmçinin, deyir ki, bu işdə dövlət qurumları ilə yanaşı, ictimai təşkilatlar, valideyn icmaları da məktəblərə dəstək olmalıdırlar.

**AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli isə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, milli qəhrəmanların adları daha çox məktəblərə verilməlidir, nəinki siniflərə: "Milli qəhrəmanların adları daha çox məktəblərin özlərinə verilməlidir. Onların qəhrəmanlığı, şücaəti daha çox təbliğ olunmalıdır. Hesab edirəm ki, siniflərə milli qəhrəmanların adlarının verilməsi elə də münasib deyil, onların adları məktəblərdə əbədiləşdirilməlidir. Siniflərə isə "İgidliyə görə" medalı, eləcə də digər ad, orden və medalla təltif edilənlərin adları verilsə, daha məqsədəuyğun olar".**

***İradə SARIYEVA***

# Bakı apteklərində Dövlət Reyestrindən keçməyən dərmanların satışı genişlənməkdədir

**Paytaxt apteklərində satılan dərman preparatlarının vahid qiymət tarifinin olmaması, dərmanların bir neçə qat baha qiymətə satılması faktdır. Elə dərman vasitələri var ki, onlara hər aptek öz istədiyi qiyməti qoyaraq müştəriyə satır.**



Bu problem azmış kimi indi də apteklərin bir çoxunda dövlət reyestrindən keçməyən dərman preparatları satılır. Özü də od bahasına. Əlbəttə, bu dərmanların ölkəmizə daxil olmasına, qeydiyyata alınmadan satışa çıxarılmasına şərait yaradan şəxslər var.

Bu gün paytaxt apteklərində satılan bəzi dərmanların, o cümlədən də "Ventolin Nebules" adlı dərmanın reyestrdən keçmədiyini Səhiyyə Nazirliyinin müvafiq qurumu da təsdiqləyir. Nazirliyin Analitik Ekspertiza Mərkəzinin mətbuat xidmətinin rəhbəri Esmira Əkbərova bildirib ki, "Ventolin Nebules" adlı dərman Dövlət Reyestrində qeydiyyatdan keçməyib.

Tibb üzrə tanınmış mütəxəssis, professor

***Adil Qeybulla:** "Dövlət Reyestrindən keçməyən dərmanları ölkəyə gətirən firmaların hansı yollarla aptek şəbəkəsinə daxil olması ciddi şəkildə araşdırılmalıdır"*

Adil Qeybulla baki-xeber.com-a bildirdi ki, bu kimi halın mövcud olması dərman təhlükəsizliyinə ziddir. A.Qeybulla hesab edir ki, Dövlər Reyestrindən keçməyən dərmanların apteklərə yol açmasında məsuliyyət daşıyan şəxslər var: "Heç şübhəsiz ki, apteklərdə müşahidə edilən bu hal özbaşınalıqdır. O dərmanları ölkəmizə kimlər gətirib? Burada ilk növbədə bu dərmanları ölkəyə gətirən şəxslər məsuliyyət daşıyırlar. Mən əslində, ölkəmizə gətirilərək Dövlət Reyestrinə salınan, qeydiyyata alınan dərmanlarla bağlı həyata keçirilən proseslərin şəffaflığına inanmıram. Dərmanların qeydiyyat prosesinin özü şübhəlidir. Amma heç olmasa qeydiyyat bir məsuliyyətdir. Dərman maddələrinin ayrıca dövlət reyestri olmalıdır, o dərman vasitələri ictimaiyyətə açıq olmalıdır. Bizdə dərmanlar hansısa bir innovasiya mərkəzində qeydiyyatdan keçir, amma dərmanların tərkibi ictimailəşdirilmir. İstənilən vətəndaş üçün açıq olmalıdır ki, Azərbaycanda satışına icazə verilən dərman preparatları hansılardır, o laboratoriyadan nə zaman qeydiyyatdan keçirilib, ona nə vaxt lisenziya verilib. Vətəndaş belə bir siyahını heç bir yerdə görə bilmir. Ona görə də, belə bir vəziyyət yaranır. Dərman təhlükəsizliyi milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsidir. Ölkəmizdə qeydiyyatda olmayan dərman preparatlarının satılması çox ciddi məsuliyyət yaradır".

A.Qeybulla həmçinin vurğuladı ki, bu həm də milli genefonumuzu ciddi təhlükə altına qoyan bir amildir: "Dövlət Reyestrindən keçməyən dərmanları ölkəyə gətirən firmaların hansı yollarla aptek şəbəkəsinə daxil olması ciddi şəkildə araşdırılmalıdır.

**Bu halın baş verməsi onu göstərir ki, müəyyən korporativ maraqlar qanunları, milli maraqları üstələyir. Apteklərin heç bir ixtiyarı yoxdur ki, özbaşına dərman satsınlar. Dövlət reyestrindən keçməyən, Azərbaycanda istifadəsinə rəsmən icazə verilməyən dərman preparatları apteklərdə satılırsa bu cinayət məsuliyyəti yaradır".**

*İradə SARIYEVA*

# Bakı Şəhər Prokurorluğu və Baş Polis İdarəsi Ceyhun Bəhmənovun cinayət əməli barədə məlumat yaydı

**Fevralın 1-də, saat 12 radələrində paytaxtın Yasamal rayonu, Ə.Ələkbərov küçəsi, 57 saylı evin qarşısında 1981-ci il təvəllüdlü, Şuşa şəhər sakini Bəhmənov Ceyhun Nizami oğlunun keçmiş arvadı, 1982-ci il təvəllüdlü Bəhmənova Dilarə Faiq qızına bıçaqla çoxsaylı xəsarət yetirməsi faktı ilə əlaqədar Yasamal Rayon Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma)maddəsi ilə cinayət işi başlanaraq C.Bəhmənov iş üzrə şübhəli şəxs qismində saxlanmaqla müdafiəçinin iştirakı ilə dindirilib.**

Fevralın 3-də C.Bəhmənov iş üzrə Cinayət Məcəlləsinin 126.2.3-cü(xüsusi amansızlıqla qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq ona qeyd edilən maddə ilə ittiham elan edilməklə məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib. İş üzrə hadisə yerinə baxış keçirilərək maddi sübutlar götürülüb, çoxsaylı şahid dindirilib, müvafiq ekspertizalar təyin olunub və digər zəruri istintaq-əməliyyat tədbirləri aparılıb.

Aparılmış istintaqla C.Bəhmənovun Dilarə Bəhmənovanı qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edildiyindən, onun əməli Cinayət Məcəlləsinin 29, 120.1-ci maddəsinə (qəsdən adam öldürməyə cəhd) tövsif edilməklə cinayət işi aidiyyəti üzrə istintaqın davam etdirilməsi üçün Yasamal Rayon Prokurorluğuna göndərilib. D.Bəhmənovanın sağlamlıq vəziyyəti ağır qiymətləndirilməklə xəstəxanada stasionar şəraitdə müalicəsi davam etdirilir. Hazırda cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.





# Sabiq deputatın oğlu Bakıda silahla saxlandı

**Sabiq deputat Gülər Əhmədovanın oğlu saxlanıb. Hüquq-mühafizə orqanlarından "Trend"ə verilən məlumata görə, hadisə paytaxtın Nəsimi rayonu ərazisində baş verib.**

Hüquq-mühafizə orqanları əməkdaşlarının daxil olan məlumat əsasında keçirdiyi əməliyyat nəticəsində Bakı şəhər sakini, 1987-ci il təvəllüdlü Toğrul Fikrət oğlu Əhmədovun idarə etdiyi BMW markalı avtomobil saxlanıb. Avtomobilə keçirilən baxış zamanı saxlanc yerindən 1 ədəd tapança, güllə ilə dolu daraq aşkar edilərək götürülüb.



Faktla bağlı cinayət işi qaldırılıb.

Xatırladaq ki, saxlanan T.Əhmədov sabiq deputat, əvvəllər məhkumluq həyatı yaşayan Gülər Əhmədovanın oğludur.

## Bir gündə 20 cinayətin üstü açıldı

**Fevralın Respublikanın daxili işlər orqanları gün ərzində törədilmiş 17 cinayətin üstünü "isti izlər"lə açıb.**

Əvvəlki dövrlərdən bağlı qalmış 3 cinayətin açılması təmin olunub.

**Axtarışda olduğuna görə ümumilikdə 24 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 12 nəfər saxlanaraq aidiyyəti üzrə təhvil verilib.**

Respublikanın avtomobil yollarında 1 ağır yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 1 nəfər ölüb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 7, qanunsuz saxlanan silah-sursatla bağlı 1 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 23 nəfər saxlanıb.

***Natiq CAVADOV***
***DİN Mətbuat Xidmətinin əməkdaşı***

№ 26 (4157) ■ Qiyməti: **40 qəpik**

# BAKI XƏBƏR

**13** FEVRAL 2020-ci il

www.baki-xeber.com



# İstifadə edilməyən paltarlar yeni texnologiya ilə təzələnəcək...

**Şkaflarımızda geyməyimiz çoxlu geyim var. Bu problemə həll tapmaq məqsədi ilə "Re:Newcell" adlı şirkət, paltarları təzələməyi bacaran yeni bir texnologiya icad etdi.**

"Re:Newcell" adlı şirkət, istifadə edilməyən köhnə paltarlardan yeni parçalar əldə edə biləcəkləri bir texnologiya yaratdı. Şirkət, "sirkulyasiya" adını verdiyi texnoloji müddət ilə yeni parçaları əldə etməyi bacardı. Əldə edilən parçaların növləri məhdud olmasına baxmayaraq, təzələnməyə böyük qatqısı olacağı ifadə edildi. Şirkət, keçən həftələrdə nəhəng geyim markalarından H&M ilə razılaşma imzaladıqlarını eşitdirdi. Şirkət istehsalatı İsveçdə qurdu. H&M ilə ortaq olan şirkət, texnologiyanın mart ayında tətbiq etməyi planlaşdırır. Bu müddətlə birlikdə parça istehlakı azalacaq və geyilməyən paltarlar təzələnməyə qatqı təmin edəcək.

Bu texnologiya ilə pambıq, viskon kimi təbii parçalardan əldə edilən köhnəlmiş paltarlar toplanır. Zəncirbənd və düymə kimi əlavələr çıxardılır və geri qalan hissələr parçalanır. Sonra boya və ya plastik kimi digər komponentlər, kimyəvi bir əritmə əməliyyatı ilə ayrılır. Daha sonra əldə edilən parçalar qurudulur. Bütün bu əməliyyatlardan sonra xam parça əldə edilir.

## Geyilə bilinən sensorlar artıq daha dözümlü olacaq

**Geyilə bilən sensorlar rahat və ağrısız bir formada məlumat yığaraq, bədəndə baş verənləri qəbul edə bilmək və bunları yığmaq üçün yeni bir formaya gəldi. Çox sadə bir formaya sahib olan bu cihazların işləri üçün az qala lazımlı olan tək şərt dəri ilə birbaşa təmas etməsidir. Alimlər bu mövzuya əl ataraq daha yaxşı bir yapışdırıcı maddə üzərində işlərə başladı.**



Geyilə bilinən cihazlar tibbdə yeni bir səhifə açır. İndiki vaxtda son zamanlarda tez-tez eşidilməyə başlanan bu cihazları xatırlaya bilməyənlər varsa, bir neçə nümunə verə bilərik. Bu texnologiya sayəsində qan almadan qan şəkərini izləmək, ya da xəstəxanada olan xəstələrin həyati əlamətlərini avtomatik olaraq ölçə bilmək mümkün olur. Tanınmış elmi jurnal "ACS Omega"da nəşr olunan yeni bir işə görə, araşdırmaçıların bu geyilə bilinən sensorları yerində tutmaq məqsədiylə yeni bir potensial yapışdırıcı meydana gətirmək üçün istifadə edilən bir polimeri dəyişdirdikləri açıqlandı. Si Çen və Tetsuşi Taquçi adlı iki elm adamı bu mövzuya daha yaxşı bir alternativ yaratmaq üçün işlərini sürətləndirdi və dərini zədələməyən bir polimer üzərində sınaqlara başladı. Bir istifadə edilə bilən xüsusiyyətinə baxmayaraq, bu polimerin yaş olanda asanlıqla çıxa bilməsi bu an alimləri ən çox düşündürən nöqtədir.

## "Azercell" olimpiada qalibləri ilə görüşdü

**Ölkə əhalisinin əksəriyyətinin seçimi və yerli mobil rabitə bazarının lideri olan "Azercell Telekom" MMC daim gənclərin fərdi və elmi inkişafına yönələn təşəbbüsləri ilə fərqlənir.**

Bu istiqamətdə ənənəsini uğurla davam etdirərək, şirkət fevral ayının 12-də ölkəmizi dəfələrlə informatika fənni üzrə beynəlxalq olimpiadalarda layiqincə təmsil edən Abutalıb Namazov, Murad Eynizadə, Əziz Hüseynov və İbrahim Tağızadə ilə görüş təşkil edib.

"Azercell Telekom"un prezidenti Vahid Mürsəliyev, şirkətin Korporativ Ünsiyyət bölümünün rəhbəri Nigar Şıxlinskaya, Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri Fuad Qarayev, Təhsil İnstitunun mütəxəssisi Qorxmaz Mustafayev, beynəlxalq olimpiadalara hazırlıq komandasının müəllimləri Kənan Əsgərli və Rəşad Məmmədov şagirdləri qazandıqları uğur münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzu ediblər. "Məktəblilərimizin son illər ərzində beynəlxalq olimpiadalarda yüksək nəticə göstərmək tendensiyası qürurverici bir haldır. Mən çox şadam ki, şagirdlərimizin bu nailiyyətində "Azercell"in də əməyi var. Biz, "Azercell" şirkəti olaraq, ölkəmizdə informasiya texnologiyaları sahəsində təhsilin, insan kapitalının sürətli inkişafı və yüksək ixtisaslı kadrların yetişdirilməsi məqsədilə təşkil edilən layihələrə daim dəstək oluruq və bu istiqamətdə fəaliyyətimizi gələcəkdə də davam etdirəcəyik", - deyə Vahid Mürsəliyev görüşdə giriş nitqi ilə çıxış edərək qeyd edib. Fuad Qarayev, öz növbəsində, "Azercell" şirkətinə təşəkkürünü bildirərək, Təhsil İnstitutu ilə "Azercell Telekom" MMC-nin artıq bir neçə il ərzində informatika sahəsi üzrə istedadlı şagirdlərin aşkar edilməsi, onlarla məqsədyönlü işlərin aparılması istiqamətində əməkdaşlıq etdiyini və bu səylərin nəticəsi olaraq komandamızın nailiyyətlərinin növbəti beynəlxalq olimpiadalarda da davam edəcəyinə ümid etdiyini bildirib. "Azercell" tərəfindən istedadlı şagirdlərimizə dəyərli hədiyyələr də təqdim edilib.

Xatırladaq ki, bu il məktəblilərimiz daha bir ilkə imza atmağa müvəffəq olublar. Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Abutalıb Namazov 8-15 yanvar tarixlərində Qazaxıstanın Almatı şəhərində baş tutan 16-cı Beynəlxalq Jautikov Olimpiadasında qızıl medal alaraq, informatika fənni üzrə ilk ali mükafatı Azərbaycana gətirib. Eyni zamanda, həmin liseyin 11-ci sinif şagirdi Murad Eynizadə gümüş və Gəncə şəhərindəki 15 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Əziz Hüseynov bürünc medal qazanıblar.

Qeyd edək ki, 2017-ci ildən etibarən "Azercell" şirkəti Təhsil Nazirliyi ilə birgə informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlaşan şagirdlər üçün xüsusi təlimlər təşkil edərək, onların öz elmi potensiallarını inkişaf etdirmələrinə töhfə verir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Çətin və qarışıq gündür. Başlağınız işə maksimum diqqətlə yanaşın. Tərəfdaş dəstəyi və ünsiyyətə tələbat artsa da, təmas dairəsini məhdudlaşdırın. Parlaq hadisələr və köklü dəyişikliklər zamanı deyil.



**Buğa** - Məkanda yeni əhval və təmayüllər var. Əsas işləri başa vurun, nəticələrə baxın və yeni planlar qurun. Ünsiyyətə tələbat artır. Ümumi maraqlarınız olan insanlarla əlaqələri gücləndirin.



**Əkizlər** - Kollektiv fəaliyyət üçün əlverişli zamandır. Hərəkətlərin dəqiq uyğunlaşdırılması, məsuliyyət və səlahiyyətlərin bölgüsü gərəkdir. Saatlar keçdikcə hadisələrin axarında bir qədər yavaşlama hiss olunacaq.



**Xərçəng** - Fəaliyyətin konkret, praktik yönlərinə daha çox fikir verin. Mənfəət indi olmasa da, az sonra realdır. Axşam saatları alış-veriş üçün əlverişlidir. Stressdən qurtulmağa çalışın.



**Şir** - Əvvəl başladığınız işləri uğurla başa çatdırmaq istəyirsinizsə, ayrılığa və güzəştlərə hazır olun. Hadisələrin yeni mərhələsi ərəfəsində mənasız hisslər və gərəksiz əlaqələrdən qurtulun.



**Qız** - Aldığınız məlumat və ya xəbəri təhlil edin. Təxirəsalmalar, əlavə söhbətlər, sizə tam inanmayan həmkarların yaratdığı maneələr olacaq. Ev işlərindən birini bitirin. İntellektual fəaliyyətlə yanaşı, fiziki işi də unutmayın.



**Tərəzi** - Mənfəəti şübhə doğurmayan işə başlayın və onu yarımçıq qoymayın. Sizi maraqlandıran mövzuya bələd insanla daha çox ünsiyyətdə olun. Tərəfdaşın ümumi işə marağının azalmaması üçün əlaqələri səngitməyin.



**Əqrəb** - Qarşı tərəfin dediklərinə qulaq assanız, maraqları razılaşdırsanız, çətinlikləri dəf etmək olar. Maliyyə durumu ağırlaşa bilər. Qənaətcil olun, problemləri daha az vəsaitlə həll edin.



**Oxatan** - Uğurlu və mənfəət vəd edən gündür. Çoxdan bəri həllini gözləyən problemi çözün. Əks təqdirdə, qarşınıza qoyduğunuz məqsədə doğru irəliləyişdə ləngimələr və yerində saymalar olacaq.



**Oğlaq** - Enerjinizi gərəkli məcraya yönəltsəniz, problemlər aradan qalxacaq. Fiziki işlə məşğul ola bilərsiniz. Axşam saatlarında gəzintiyə çıxın. Belədə əhvalınız yaxşılaşdırmağla yanaşı, yuxusuzluqdan qurtula bilərsiniz.



**Dolça** - Emosional fon sabit deyil. Mübahisə və ixtilaf riski böyükdür. Adi vaxtlardan fərqli olaraq həddən ziyadə sərt danışmayın, kobudluq etməyin. Ətrafınızdakı insanlar belə yaramaz davranışa dözmək məcburiyyətində deyillər.



**Balıqlar** - Gərəkli informasiya, insanlar özü gələcək, situasiya formalaşacaq. Sizə qalan təhlil etmək, sistemləşdirmək və seçməkdir. Bütün işlərdə istədiyiniz nəticəyə nail ola bilməyəcəksiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Feysbuk"da üz tanıma texnologiyası istifadəyə verildi

**"Feysbuk" sosial şəbəkəsi üz tanıma texnologiyasını istifadəyə verib.**

"Ted.az" bildirir ki, "Feysbuk" istifadəçilərə üz tanıma texnologiyasının istifadəsi barədə sorğu göndərib. Sözügedən sorğu texnologiyanın istifadə qaydasını ehtiva edərək istifadəçilərin yeni texnologiyanı qoşmaq istəyib, istəmədiyiklərini öyrənmək xarakterini daşıyır. "Üz tanıma texnologiyası fotoşəkilinizi və ya videonunuzu təhlil etməyə, görünüşünüzün təkrarsız rəqəmli kodunu ("şablon") hesablamağa imkan verir. Üz tanıma funksiyasını aktivləşdirsəniz, biz sizin üçün yeni şablonu yaradacağıq. Şablonunuzu heç kimə təqdim etmirik. Hesabınız aktiv olduqda onu saxlayacağıq. Üz tanıma rejimini söndürsəniz, şablonu siləcəyik. Beləliklə, kənar insanlar sizinlə şəkil paylaşdıqda və yaxud şəklinizdən özününkü imiş kimi istifadə etdikdə, sistem üz cizgilərinizi tanıyacaq və sizə bu barədə məlumat göndərəcək", - deyə sorğuda qeyd olunub.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.